

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ QAPISI

100 ilin qəzeti

Sayı: 32 (24.414)

17 avqust 2024-cü il, şənbə

www.serqqapisi.gov.az

Təsisçi: *Naxçıvan Muxtar Respublikasının Ali Məclisi*


## Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 17 sentyabr tarixli 1844 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Audiovizual yerüstü yayım həyata keçirən dövlət orqanlarının (qurumlarının) Siyahısı”nda dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 17 sentyabr tarixli 1844 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 9, maddə 1033 (Cild I) ilə təsdiq edilmiş “Audiovizual yerüstü yayım həyata keçirən dövlət orqanlarının (qurumlarının) Siyahısı”na aşağıdakı məzmunda 3-1-ci və 7-ci hissələr əlavə edilsin:

“3-1. “Naxçıvan Muxtar Respublikası Televiziya və Radio Verilişləri” Qapalı Səhmdar Cəmiyyəti – “Naxçıvan TV” televiziya yayımçısı.”;

“7. “Naxçıvan Muxtar Respublikası Televiziya və Radio Verilişləri” Qapalı Səhmdar Cəmiyyəti – “Naxçıvan Radiosu” radio yayımçısı.”.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 15 avqust 2024-cü il*

## Qeydiyyata alınmış vergiödəyicilərinin sayı 20 faizdən çox artıb

Cari ilin yanvar-iyul aylarında Naxçıvan Muxtar Respublikasında 4278 yeni vergiödəyicisi qeydiyyata alınıb.

Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətindən “Şərq qapısı”na bildirilib ki, onların 4090-ı fiziki, 188-i isə hüquqi şəxslər və digər təşkilatlar olub. Qeydiyyata alınmış vergiödəyicilərinin sayı ötən ilin eyni dövrü ilə müqayisədə 20,8 faiz artıb. Bu ilin 7 ayında kommersiya qurumlarının 63,8 faizi elektron qaydada, 36,2 faizi isə kağız daşıyıcılar vasitəsilə müraciətlər əsasında uçota alınıb.

## Naxçıvan Dövlət Universitetinin komandası 5-ci dəfə ölkə çempionu olub



Naxçıvan Dövlət Universitetinin Enactus komandası Enactus Azərbaycan milli çempionatının 5-ci dəfə qalibi olub.

Qeyd edək ki, qalib komanda Azərbaycanı Qazaxıstanın paytaxtı Astana şəhərində keçiriləcək dünya kubokunda təmsil edəcək.

# Prezident İlham ƏLİYEV: “Bu Oyunlar bir daha göstərdi ki, Azərbaycanda idmanın inkişafı ardıcıl surətdə gedir”



### *Müstəqilliyimizin 33 illiyinə dəyərli idman töhfəsi: 33-cü Yay Olimpiya Oyunları*

Gərgin idman mübarizəsindən daha çox siyasi manipulyasiyaları, haqsızlıqları, zəif təşkilatçılığı ilə diqqətlərə hakim kəsilən, Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin 30 illiyinin tamam olduğu gündə – iyulun 26-da start götürən “Paris-2024” Yay Olimpiya Oyunları da tarixə qovuşdu. Sayca 33-cü dəfə keçirilən, 16 gündə 329 dəst medalın öz sahibini tapdığı bu beynəlxalq turniri müştəqilliyinin bərpasının 33-cü baharını yaşayan ölkəmiz üçün uğurlu hesab etmək olar.

“Ancaq gözlənilən nəticə bundan daha böyük idi” fikri ilə də haqlı olaraq çıxış edənlər az deyil. İdman mütəxəssislərimiz, məşqçilər də “Azərbaycan” komandasının daha çox medal qazanacağına, ümumi nəticənin daha yüksək olacağına böyük ümid bəsləyirdilər. İdmançıların bir neçəsi də yarışdan sonra nəticəsindən narazı qaldığını, hədəfinin yüksək olduğunu dilə gətirdi. Di gəl ki, idmanda bəzən “olar” dediklərin olmur, gözləmədiklərin baş verir. Elə Paris Olimpiadası da bu baxımdan bir neçə yarışçımız üçün sürpriz oldu deyə bilərik. Xüsusilə də sərbəst güləş üzrə titullu idmançılarımız, təəssüf ki, bəslənən ümidləri doğrultmadı.Avqustun 14-də XXXIII Paris Yay Olimpiya Oyunlarında medal qazanmış Azərbaycan idmançılarını və onların məşqçilərini qəbul zamanı ölkə başçısı da məhz bu məqama toxunaraq bildirdi: ***“Daha çox medal qazana bilərdik, bəli, qazana bilərdik. Amma bu idmandır, idmanda qələbə də olur, məğlubiyyət də olur. Əsas odur bu Oyunlar bir daha göstərdi ki, Azərbaycanda idmanın inkişafı ardıcıl surətdə gedir”.***

Səhifə ➡ 8

## Naxçıvanda “Ekoloji su hüquqpozmalarının iqlim dəyişikliyinə təkan verməsi” mövzusunda elmi-praktiki konfrans keçirilib




## “Vətəndaşların seçki hüququnun təmini” mövzusunda dəyirmi masa



Avqustun 12-də Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) və Mərkəzi Seçki Komissiyasının birgə təşkilatçılığı ilə Naxçıvan Biznes Mərkəzində “Vətəndaşların seçki hüququnun təmini” mövzusunda dəyirmi masa keçirilib.

Dəyirmi masada Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın), Mərkəzi Seçki Komissiyasının və Naxçıvan Muxtar Respublikası İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) əməkdaşları, dairə və məntəqə seçki komissiyalarının nümayəndələri, eləcə də media subyektləri iştirak ediblər.

Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Günay Rzayeva tədbiri giriş sözü ilə açaraq müvəkkil təsisatı tərəfindən muxtar respublikada vətəndaşların seçki hüququnun müdafiəsi və təmin edilməsi ilə bağlı vəziyyətin öyrənilməsi barədə, eləcə də müvafiq dövlət qurumları ilə birgə maarifləndirmə tədbirlərinin təşkili haqqında məlumat verib.

Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Səbinə Əliyeva çıxış edərək vətəndaş və siyasi hüquqların daha səmərəli təmini və müdafiəsi sahəsində ardıcıl işlərin görüldüyü, seçki hüquqlarının təmini vəziyyətinin daim diqqətdə saxlanıldığı və seçki qanunvericiliyi, seçki prosedurları barəsində geniş məlumat verib.

Mərkəzi Seçki Komissiyasının üzvü Nizami Nadirxanlı çıxış edərək parlament seçkiləri ərəfəsində Mərkəzi Seçki Komissiyası tərəfindən görülən işlər və həyata keçiriləcək tədbirlər barədə geniş məlumat verib.

Sonda mövzu ətrafında müzakirələr aparılıb və iştirakçıların sualları cavablandırılıb.

## Əhalinin sayı artıb




Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsindən “Şərq qapısı”na verilən məlumata görə, 1 iyul 2024-cü il tarixə muxtar respublikada əhalinin sayı bir il öncəyə nisbətən 2588 nəfər və ya 0,6 faiz artaraq 469625 nəfər olub.

## Bənəniyar Su Anbarını qidalandıran kanalın yenidən qurulmasının layihələndirilməsi başa çatıb

“Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı” çərçivəsində Naxçıvan Muxtar Respublikası Dövlət Su Ehtiyatları Agentliyi tərəfindən həyata keçirilən tədbirlər davam etdirilir. Dövlət Proqramına uyğun olaraq Əlincəçaydan su götürən və Culfa rayonunun ərazisindəki Bənəniyar Su Anbarını qidalandıran kanalın yenidən qurulmasının layihələndirilməsi başa çatıb. Layihənin icrası məqsədilə yenidənqurma işlərinin aparılması ilə bağlı hazırlıq işləri həyata keçirilir.

Beton kanal, əsasən, Bənəniyar Su Anbarının doldurulması üçün istifadə olunur. 17.4 milyon kubmetr su tutumu olan anbar Culfa və Babək rayonunun 4200 hektar əkin sahələrini suvarma suyu ilə təmin edir. Bu baxımdan uzunluğu 7,7 kilometr olan kanal yenidən qurularaq sukeçirmə qabiliyyətinin saniyədə 3 kubmetrdən 5 kubmetrə çatdırılması su anbarının qısa müddətdə doldurulmasına zəmin yaradacaq.

Həyata keçirilən işlərin nəticəsində isə suvarma dövründə Əlincəçaydan digər suvarılan sahələrə suyun verilməsi mümkün olacaq. Kanalın su keçiricilik qabiliyyətinin artırılması hesabına yaz və payız aylarında suyun, əsasən, çox olduğu dövrdə həm su anbarının tam doldurulmasını təmin etməklə yanaşı, həm də kanalın altında yerləşən əkin sahələri və həyətyanı sahələrin suvarılmasına nail olunacaqdır. Kanalda su itkisinin azalması hesabına kanalaltı əkin sahələrinin şoranlaşmasının qarşısı alınacaq, subölüşdürücü qurğunun bərpası isə Əlincəçayın suyunun bölünməsi və idarə edilməsini asanlaşdıracaqdır.

# Naxçıvanda “Ekoloji su hüquqpozmalarının iqlim dəyişikliyinə təkan verməsi” mövzusunda elmi-praktiki konfrans keçirilib






Avqustun 16-da Naxçıvan Dövlət Universitetinin Beynəlxalq Məktəbində “Ətraf mühitin gücləndirilməsi: Maarifləndirmə və hüquq-mühafizə tədbirlərinin rolu” ECOLEAD lahiyəsi çərçivəsində “Ekoloji su hüquqpozmalarının iqlim dəyişikliyinə təkan verməsi” mövzusunda elmi-praktiki konfrans keçirilib.

Konfrans iştirakçıları xalqımızın Ümummilli Lideri Heydər Əliyevin Naxçıvan şəhərinin baş meydanında ucaldılmış abidəsini ziyarət edib, abidə önünə tər güllər düzüblər.

Naxçıvan Dövlət Universitetinin Beynəlxalq Məktəbində davam etdirilən konfransda əvvəlcə Ulu Öndər Heydər Əliyev və şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunub, Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Baş prokuror Kamran Əliyev qeyd edib ki, Ulu Öndər Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkəmiz beynəlxalq miqyasda nüfuzunu gücləndirir, eləcə də ölkəmizdə iri layihələrin sürətlə icrası davam etdirilir. Qarabağ və digər ərazilərimizdə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi və Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın yaxından iştirakı ilə aparılan titanik layihələrə toxunan Baş prokuror işğaldan azad olunan şəhər və kəndlərimizin yenidən qurulduğunu diqqətə çatdırıb.

Vurğulanıb ki, bu il BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası – COP29 kimi mötəbər bir tədbirin Azərbaycan Respublikasında keçirilməsi ölkəmizin tarixinə qızıl hərflərlə yazılacaq. Ermənistanın ölkəmizə qarşı həyata keçirdiyi işğalçı siyasətin acı nəticələrindən birinin ölkəmizin su ehtiyatlarının yararsız vəziyyətə gətirilməsi olduğuna diqqətçəkən Baş prokuror bunun nəticəsində Azərbaycan əhalisinin illərdir, Qarabağda olan zəngin su ehtiyatlarından məhrum qaldığını deyib.

Kamran Əliyev “BMT-nin Transsərhəd kontekstində ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında” 1991-ci il Konvensiyası (ESPO), “Sərhəddən keçən su axınlarının və beynəlxalq göllərin mühafizəsi və istifadəsi haqqında” BMT-nin 1992-ci il tarixli Konvensiyası, eləcə də həmin Konvensiyanın “Su və sağlamlıq haqqında” 1999-cu il 17 iyun tarixli Protokollarından irəli gələn öhdəliklərin Ermənistan tərəfindən kobud şəkildə pozulmasını da xüsusi qeyd edib.



Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası – COP29 kimi mötəbər tədbirin bu il Azərbaycanda keçirilməsinin və bu çərçivədə müxtəlif konfransların təşkilinin mühüm əhəmiyyətə malik olduğunu bildirib. Diqqətə çatdırıb ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin iqlim dəyişiklikləri ilə bağlı ortaya qoyduğu mövqe və bu məsələ ilə əlaqədar beynəlxalq təşəbbüslərə verdiyi birmənalı dəstək ölkəmizin ekoloji problemlərin həllinə sadiqliyini nümayiş etdirməklə yanaşı, həm də beynəlxalq ictimaiyyət üçün yol xəritəsidir. Azərbaycanın 2030-cu ilədək sosial-iqtisadi inkişafına dair milli prioritetlərindən birinin “Təmiz ətraf mühit və yaşıl artım ölkəsi” kimi müəyyən edilməsi, işğaldan azad edilmiş ərazilərin və Naxçıvan Muxtar Respublikasının “yaşıl enerji zonası” elan olunması, 2024-cü ilin “Yaşıl dünya naminə həmrəylik ili” elan edilməsi ölkə Prezidentinin bu sahədə apardığı məqsədyönlü və ardıcıl dövlət siyasətinin təzahürüdür. Hazırda Qarabağda və Şərqi Zəngəzurda həyat yenidən bərpa olunur, ekoloji tələblərə uyğun SMART infrastrukturun formalaşdırılması istiqamətində mühüm işlər görülür, “yaşıl enerji zonası” yaradılır, “ağıllı şəhər” və “ağıllı kənd” layihələri icra olunur.

Səlahiyyətli nümayəndə qeyd edib ki, “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı”nın 11-ci prioriteti də “Ətraf mühitin mühafizəsinin gücləndirilməsi” ilə bağlıdır. Bu da muxtar respublikada iqlim dəyişikliklərinin ətraf mühit komponentlərinə təsirlərinin minimuma endirilməsi işinə mühüm töhfə verəcəkdir.

Fuad Nəcəfli vurğulayıb ki, bu gün Naxçıvan Muxtar Respublikasında bizi düşündürən əsas məsələlər sırasında su təminatı xüsusi yer tutur. Muxtar respublikanın suvarma suyu təminatında böyük paya sahib olan Araz və Arpaçayın Ermənistan ərazisindən keçməsi ekoloji su hüquqpozmalarının qarşısının alınması ilə bağlı məsələlərin diqqətdə saxlanılmasını zəruri edir. Aydın məsələdir ki, hər iki çay, xüsusilə də Araz çayı beynəlxalq hüquq normalarına zidd şəkildə davamlı və güclü şəkildə çirkləndirilir. Bu da nəinki ölkəmiz, ümumilikdə, bölgədə yaşayan insanlar və canlılar üçün ciddi təhlükəyə çevrilir.

Ermənistan tərəfindən metalların zəhərli tullantılarının həm Araz çayına, həm də Sədərək rayonu ərazisindən keçən “Şir arxı”na axıdılmasının burada olan yüzlərlə köçəri quş və balığın məhvi ilə nəticələndiyini, Araz çayının Ermənistan tərəfindən çirkləndirilməsinin bu gün də davam etdiyini və bunun Arazqırağı ərazilərdə fauna və floranın məhvinə səbəb olduğunu qeyd edən səlahiyyətli nümayəndə “Ekoloji su hüquqpozmalarının iqlim dəyişikliyinə təkan verməsi” mövzusunda keçirilən konfransda bu kimi məsələlərin bir daha diqqətə çatdırılacağına inamını ifadə edib, təşkilatçılara təşəkkür edib.

Konfransda Baş prokurorun müavini Heydər Məmmədov, Baş Prokurorluğun Cinayət təqibindən kənar icraatlar idarəsinin rəisi Elnur Musayev, Naxçıvan Muxtar Respublikasının prokuroru Sənan Paşayev, ekologiya və təbii sərvətlər nazirinin müavini Vüqar Kərimov, Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin Regional Su Meliorasiya Xidmətinin rəisi Zakir Quliyev, Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi Aparatının rəhbəri Mətin Kərimli, Naxçıvan Muxtar Respublikasının ekologiya və təbii sərvətlər naziri Xanlar Mustafayev, Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev, Bakı Dövlət Universitetinin Elm və innovasiyalar üzrə prorektoru Hüseyn Məmmədov, Baş Prokurorluğun idarə prokuroru Elşad Ağayev tərəfindən çıxışlar edilib və mövzu ətrafında səmərəli müzakirələr aparılıb.

Konfrans iştirakçıları “Azərbaycan Respublikasında ekoloji siyasətə dair” və “Azərbaycan Respublikasında ekoloji hüquqpozmalara qarşı mübarizə” mövzularında videoçarxlar izləyiblər.

Sonda Baş Prokurorluq, Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Bakı Dövlət Universiteti arasında qarşılıqlı əməkdaşlıq barədə anlaşma memorandumuna uyğun olaraq təsis edilmiş “Maarifləndirmə və hüquq-mühafizə tədbirləri yolu ilə ətraf mühitin gücləndirilməsi” (ECOLEAD) layihəsinə Naxçıvan Dövlət Universitetinin tərəfdaş qismində qoşulmasına dair sənəd imzalanıb.

## Naxçıvan Muxtar Respublikası Ali Məclisinin növbədənkənar sessiyasının çağırılması haqqında

## Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin

## Qərarı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 18-ci maddəsinin II hissəsini, 32-ci maddəsinin I hissəsinin 1-ci bəndini və 30-cu maddəsini rəhbər tutaraq **qərara alıram:**

1. 2024-cü il avqust ayının 12-dən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin növbədənkənar sessiyası çağırılsın.

2. Növbədənkənar sessiyanın gündəliyinə aşağıdakı məsələlər verilsin:

2.1. “Naxçıvan Muxtar Respublikasının 2024-cü il büdcəsi haqqında” Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi;

2.2. Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasının tərkibində dəyişiklik edilməsi.

3. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Aparatı bu Qərardan irəli gələn məsələləri həll etsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin müavini Anar İBRAHİMOV**

*Naxçıvan şəhəri, 12 avqust 2024-cü il*

# Ali Məclisin növbədənkənar sessiyasının ilk iclası keçirilib



Avqustun 14-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin növbədənkənar sessiyasının ilk iclası keçirilib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin müavini Anar İbrahimov bildirib ki, Naxçıvan Muxtar Respublikası Baş nazirinin 2024-cü il 8 və 12 avqust tarixli məktubları ilə “Naxçıvan Muxtar Respublikasının 2024-cü il büdcəsi haqqında” Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” və “İşsizlikdən sığorta fondunun 2024-cü il büdcəsi haqqında” Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Naxçıvan Muxtar Respublikasının Qanun layihələri müzakirəyə çıxarılması üçün Ali Məclisə daxil olub.

İclasın gündəliyinə “Naxçıvan Muxtar Respublikasının 2024-cü il büdcəsi haqqında” Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” və “İşsizlikdən sığorta fondunun 2024-cü il büdcəsi haqqında” Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Qanun layihələri (birinci oxunuş) və Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasının tərkibində dəyişiklik edilməsi məsələsi daxil edilib.

Gündəlik təsdiq olunduqdan sonra Ali Məclisin sədr müavini Anar İbrahimov gündəlikdə duran birinci məsələ ilə bağlı qeyd edib ki, “Büdcə sistemi haqqında” Azərbaycan Respublikası Qanununun 23-cü maddəsinə uyğun olaraq 8 avqust 2024-cü il tarixdə “Naxçıvan Muxtar Respublikasının 2024-cü il büdcəsi haqqında” Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Naxçıvan Muxtar Respublikasının Qanun layihəsi Nazirlər Kabineti tərəfindən Ali Məclisə təqdim olunub. Muxtar respublikada əmək bazarının inkişafı üçün haqqıödənilən ictimai işlərin, işsizliyə görə sığorta ödənişləri üzrə xərclərin maliyyələşdirilməsi məqsədilə əlavə vəsaitə ehtiyacın yaranması, bəzi xərc istiqamətləri üzrə vəsaitlərin azaldılması zərurəti yaranıb. Buna görə də İşsizlikdən sığorta fondunun 2024-cü il büdcəsində dəyişiklik edilməsi ilə əlaqədar Ali Məclisə 12 avqust 2024-cü il tarixdə qanun layihəsi daxil olub. Layihələr İqtisadi siyasət komitəsinin 13 avqust 2024-cü il tarixli iclasında komitənin sədr və üzvlərinin, Ali Məclis və Nazirlər Kabineti aparat nümayəndələrinin, eləcə də Naxçıvan Muxtar Respublikası maliyyə nazirinin, əmək və əhalinin sosial müdafiəsi nazirinin müavininin iştirakı ilə müzakirə olunub.

Ali Məclisin İqtisadi siyasət komitəsinin sədri İsa İsayev qanun layihələri haqqında məlumat verib, təmsil etdiyi komitənin rəyini diqqətə çatdırıb.

“Naxçıvan Muxtar Respublikasının 2024-cü il büdcəsi haqqında” Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Qanun layihəsi ilə əlaqədar maliyyə naziri Həsən İsmayılov çıxış edib.

Anar İbrahimov qanun layihəsinin 7-1-ci maddəsinin yeni redaksiyada verilməsi ilə bağlı düzəlişlər təklif edib. Qeyd edib ki, Ali Məclisin Daxili Nizamnaməsinə uyğun olaraq qanun layihəsinə birinci oxunuşda baxılması nəticəsində Ali Məclisin protokol qaydasında qəbul edilən qərarı ilə layihə birinci oxunuşda qəbul edilir, söylənilmiş təklif və iradlar nəzərə alınmaqla onun üzərində iş davam etdirilir.

Sonra qanun səsə qoyularaq birinci oxunuşda qəbul edilib.

Naxçıvan Muxtar Respublikası əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Fərid Bağırzadə “İşsizlikdən sığorta fondunun 2024-cü il büdcəsi haqqında” Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Qanun layihəsi ilə əlaqədar çıxış etdikdən sonra qanun səsə qoyularaq qəbul olunub.

Gündəlikdə duran sonuncu məsələ – Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasının tərkibində dəyişiklik edilməsi barədə Anar İbrahimov qeyd edib ki, Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasının sonuncu tərkibi Ali Məclisin 2020-ci il 30 dekabr tarixli Qərarı ilə seçilib. 22 iyul 2024-cü il tarixdə keçirilmiş Mərkəzi Seçki Komissiyasının iclasında komissiyanın sədri Əjdər Əliyev Zahid oğlu öz ərizəsi əsasında sədr vəzifəsindən azad edilib. 24 iyul 2024-cü il tarixdə komissiya üzvü Əjdər Əliyev 1 sentyabr 2024-cü il tarixdə Ali Məclisə keçiriləcək növbədənkənar seçkilərə deputatlığa namizədliyini irəli sürüb. “Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər haqqında” Naxçıvan Muxtar Respublikası Qanununun müvafiq maddəsinə əsasən Ali Məclisin deputatlığına namizəd olduqda seçki komissiyası üzvünün səlahiyyətlərinə xitam verilir.

*Ardı 3-cü səhifədə*

Beləliklə, Əliyev Əjdər Zahid oğlu Mərkəzi Seçki Komissiyasının üzvü ola bilməz. Naxçıvan Muxtar Respublikası Konsitusiyasına əsasən Ali Məclis Naxçıvan Muxtar Respublikası Ali vəzifəli şəxsinin təklifi ilə Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasının üzvlərinin təyin edilməsi məsələsini həll edir. Sədr müavini qeyd olunanları nəzərə alaraq Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasının üzvlüyünə namizəd olaraq Orucəliyev Ramil Əli oğlunu təklif edib.

Namizəd haqqında məlumat verilib və Ramil Orucəliyevin Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasının üzvü seçilməsi ilə əlaqədar Ali Məclisin 2020-ci il 30 dekabr tarixli Qərarında dəyişiklik edilməsi ilə bağlı qərar oxunduqdan sonra səsə qoyularaq qəbul edilib.

Bununla da Ali Məclisin növbədənkənar sessiyasının ilk iclası öz işini başa çatdırıb.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

# Ali Məclisin İqtisadi siyasət komitəsinin iclası keçirilib

Avqustun 13-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin İqtisadi siyasət komitəsinin iclası keçirilib.

İclası açan İqtisadi siyasət komitəsinin sədri İsa İsayev gündəlikdə duran məsələlərin – "Naxçıvan Muxtar Respublikasının 2024-cü il büdcəsi haqqında" Naxçıvan Muxtar Respublikası Qanununda dəyişiklik edilməsi barədə Naxçıvan Muxtar Respublikası Qanununun və "İşsizlikdən sığorta fondunun 2024-cü il büdcəsi haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Naxçıvan Muxtar Respublikası Qanununun müzakirə olunacağını diqqətə çatdırıb.

Gündəlik təsdiq olunduqdan sonra komitə sədri bildirib ki, Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti "Büdcə sistemi haqqında" Azərbaycan Respublikası Qanununun 23-cü maddəsinə uyğun olaraq "Naxçıvan Muxtar Respublikasının 2024-cü il büdcəsi haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə və "İşsizlikdən sığorta fondunun 2024-cü il büdcəsi haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Naxçıvan Muxtar Respublikasının Qanun layihələrini Ali Məclisə təqdim edib. Layihələr müzakirə üçün İqtisadi siyasət komitəsinə daxil olub və deputatlara paylanılıb.

Naxçıvan Muxtar Respublikasının maliyyə naziri Həsən İsmayılov "Naxçıvan Muxtar Respublikasının 2024-cü il büdcəsi haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Qanun layihəsi haqqında məlumat verib.

"İşsizlikdən sığorta fondunun 2024-cü il büdcəsi haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Naxçıvan Muxtar Respublikasının Qanun layihəsi ilə bağlı isə Naxçıvan Muxtar Respublikasının əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Fərid Bağırzadə məlumat verib.

Gündəlikdə duran məsələlər ətrafında aparılan müzakirələrdə Ali Məclis Aparatının İqtisadi məsələlər şöbəsinin müdiri Nihad Möhbalıyev Naxçıvan Muxtar Respublikasının 2024-cü il büdcəsində artım olmasını muxtar respublikada sosial-iqtisadi inkişafa yönəldilmiş tədbirlərin uğurlu nəticəsi kimi dəyərləndirib.

Nihad Möhbalıyev büdcədə təhsil və ətraf mühitin mühafizəsi sahələri üzrə xərclərin, Ali Məclisin Sosial siyasət komitəsinin sədri Yeganə Məmmədova isə subsidiyaların azaldılmasının səbəbləri barədə sualları səsləndiriblər.

Maliyyə naziri Həsən İsmayılov və Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti Aparatının rəhbəri Sahir Rüstəmov səsləndirilən fikirlərə münasibət bildirib, suallara aydınlıq gətiriblər.

Müzakirələrin sonunda gündəlikdə duran məsələlərlə əlaqədar İqtisadi siyasət komitəsinin qərarı oxunduqdan sonra Naxçıvan Muxtar Respublikasının 2024-cü il büdcəsi gəlirlər üzrə 190 milyon 484 min 816 manat, xərclər üzrə 539 milyon 265 min manat məbləğində, İşsizlikdən sığorta fondunun 2024-cü il büdcəsinin gəlirləri isə 6 milyon 500 min manat, xərcləri 6 milyon 500 min manat məbləğində olmaqla təsdiq olunması üçün altıncı çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin növbədənkənar sessiyasına təqdim edilib.

# Ali Məclisin növbədənkənar sessiyası başa çatıb





Avqustun 16-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin növbədənkənar sessiyası başa çatıb.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin müavini Anar İbrahimov bildirib ki, iclasın gündəliyinə "Naxçıvan Muxtar Respublikasının 2024-cü il büdcəsi haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" və "İşsizlikdən sığorta fondunun 2024-cü il büdcəsi haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Naxçıvan Muxtar Respublikasının Qanun layihələri daxil edilib.

Gündəlik təsdiq olunduqdan sonra Ali Məclisin sədr müavini Anar İbrahimov gündəlikdə duran birinci məsələ ilə bağlı qeyd edib ki, qanun layihəsi 14 avqust 2024-cü il tarixdə birinci oxunuşda müzakirə edilib, söylənilmiş təklif nəzərə alınmaqla onun üzərində iş davam etdirilməklə Ali Məclisin protokol qaydasında qərarı ilə birinci oxunuşda qəbul edilib. Layihənin birinci oxunuşunda verilmiş təklifə Ali Məclisin İqtisadi siyasət komitəsi tərəfindən baxılıb, müzakirənin nəticəsi olaraq layihənin yenilənmiş variantda sonrakı oxunuşlar üçün Ali Məclisin iclasına təqdim olunması qərara alınıb.

Ali Məclisin İqtisadi siyasət komitəsinin sədri İsa İsayev qanun layihəsinin müzakirəsi ilə əlaqədar məlumat verib, təmsil etdiyi komitənin rəyini diqqətə çatdırıb, "Naxçıvan Muxtar Respublikasının 2024-cü il büdcəsi haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Naxçıvan Muxtar Respublikasının Qanunu səsə qoyularaq qəbul edilib.

Gündəlikdə duran növbəti məsələ – "İşsizlikdən sığorta fondunun 2024-cü il büdcəsi haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Naxçıvan Muxtar Respublikasının Qanun layihəsi ilə bağlı Ali Məclisin İqtisadi siyasət komitəsinin sədri İsa İsayev məlumat verib, təmsil etdiyi komitənin rəyini diqqətə çatdırıb, qanun səsə qoyularaq qəbul olunub.

Sonda Ali Məclisdə deputat kimi çalışıb fəaliyyət göstərməkdən hər zaman qürur hissi keçirdiyini deyən Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin müavini Anar İbrahimov iclas iştirakçılarına gələcək fəaliyyətlərində uğurlar arzulayıb. Bildirib ki, Ali Məclisdə çalışmaq qürurvericidir. Çünki bu məclisdə Ulu Öndər Heydər Əliyev müasir müstəqil Azərbaycanın təməl daşlarını atıb.

Bununla da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin növbədənkənar sessiyası öz işini başa çatdırıb.

# Ali Məclisin komitə iclasında qanun layihələri müzakirə edilib



Avqustun 16-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin İqtisadi siyasət komitəsinin iclası keçirilib.

İqtisadi siyasət komitəsinin sədri İsa İsayev iclası açaraq bildirib ki, 13 avqust 2024-cü il tarixdə İqtisadi siyasət komitəsinin "Naxçıvan Muxtar Respublikasının 2024-cü il büdcəsi haqqında" və "İşsizlikdən sığorta fondunun 2024-cü il büdcəsi haqqında" Naxçıvan Muxtar Respublikasının qanunlarında dəyişiklik edilməsi ilə bağlı iclası keçirilib. İclasda gündəliyə daxil olan məsələlərlə bağlı müzakirələr aparılıb və komitənin qərar və rəyi hazırlanıb, 14 avqust 2024-cü il tarixdə birinci oxunuş üçün Naxçıvan Muxtar Respublikası Ali Məclisinin növbədənkənar sessiyasına təqdim edilib. Birinci oxunuşda "Naxçıvan Muxtar Respublikasının 2024-cü il büdcəsi haqqında" Qanun layihəsinin 7-1-ci maddəsində düzəliş olunması ilə bağlı təklif səsləndirilib və qeyd edilən təklif nəzərə alınaraq qanun layihəsinin müvafiq maddəsində dəyişiklik aparılıb, digər maddələrdə isə hər hansı bir dəyişiklik aparılmayıb.

İsa İsayev qanun layihəsinin 7-1-ci maddəsində edilən dəyişiklik barədə məlumat verib.

Əlavə olaraq qeyd olunub ki, "İşsizlikdən sığorta fondunun 2024-cü il büdcəsi haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda isə hər hansı bir dəyişiklik olmadığı üçün qanun layihəsi olduğu kimi saxlanılıb.

Sonda İqtisadi siyasət komitəsinin qərarı oxunub, qanun layihələri Ali Məclisin müzakirəsinə təqdim edilib.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## "Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasının üzvlərinin seçilməsi haqqında" Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 2020-ci il 30 dekabr tarixli 12-VI QR nömrəli Qərarında dəyişiklik edilməsi barədə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin

## Qərarı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 25-ci maddəsinin I hissəsinin 8-ci bəndini rəhbər tutaraq Naxçıvan Muxtar Respublikasının Ali Məclisi **qərara alır:**

"Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasının üzvlərinin seçilməsi haqqında" Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 2020-ci il 30 dekabr tarixli 12-VI QR nömrəli Qərarında "Əliyev Əjdər Zahid oğlu" sözləri "Orucəliyev Ramil Əli oğlu" sözləri ilə əvəz edilsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin müavini** **Anar İBRAHİMOV**

*Naxçıvan şəhəri, 14 avqust 2024-cü il*

## Naxçıvan Muxtar Respublikasında idarələrarası elektron informasiya mübadiləsi sisteminin yaradılması və fəaliyyətinin təmin edilməsi barədə Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin

## Fərmanı

Naxçıvan Muxtar Respublikasında rəqəmsal idarəçiliyin tətbiqini sürətləndirmək, dövlət orqanları (qurumları) arasında real vaxt rejimində və təhlükəsiz qaydada informasiya mübadiləsinin aparılmasını təmin etmək, dövlət informasiya ehtiyatları və sistemləri arasında məlumat mübadiləsinin səmərəliliyini artırmaq və elektron xidmətlərin göstərilməsində idarəetməni optimallaşdırmaq məqsədilə Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini və 30-cu maddəsini rəhbər tutaraq **qərara alıram:**

1. Naxçıvan Muxtar Respublikasında İdarələrarası Elektron İnformasiya Mübadiləsi Sistemi (bundan sonra – Sistem) yaradılsın.

2. "Naxçıvan Muxtar Respublikasında İdarələrarası Elektron İnformasiya Mübadiləsi Sistemi haqqında Əsasnamə" təsdiq edilsin (əlavə olunur).

3. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti iki ay müddətində:

3.1. Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin aktlarının bu Fərmana uyğunlaşdırılması ilə bağlı təkliflərini hazırlayıb Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədrinə təqdim etsin;

3.2. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını təmin edib Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədrinə məlumat versin;

3.3. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

4. Naxçıvan Muxtar Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi:

4.1. Sistemin texniki infrastrukturunun qurulmasını 2024-cü ilin sonunadək başa çatdırsın;

4.2. Sistemin fəaliyyətinin təşkilini, idarə olunmasını, təhlükəsizliyini, təkmilləşdirilməsini və ondan səmərəli istifadəni təmin etsin;

4.3. aidiyyəti dövlət orqanları (qurumları) ilə birlikdə Sistemə keçid prosesinin sürətləndirilməsi məqsədilə mövcud kommunikasiya infrastrukturunun təkmilləşdirilməsi ilə bağlı tədbirlər görsün;

4.4. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

5. Naxçıvan Muxtar Respublikasının Maliyyə Nazirliyi Naxçıvan Muxtar Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin təklifləri əsasında Sistemin formalaşdırılması, aparılması və saxlanılması ilə bağlı maliyyə məsələlərini həll etsin.

6. Naxçıvan Muxtar Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu Fərmana uyğunlaşdırılmasını təmin edib Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin müavini** **Anar İBRAHİMOV**

*Naxçıvan şəhəri, 14 avqust 2024-cü il*

*Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2024-cü il 14 avqust tarixli Fərmanı ilə təsdiq edilmişdir*

# Naxçıvan Muxtar Respublikasında İdarələrarası Elektron İnformasiya Mübadiləsi Sistemi haqqında ƏSASNAMƏ

**1. Ümumi müddəalar**

1.1. Bu Əsasnamə Naxçıvan Muxtar Respublikasında İdarələrarası Elektron İnformasiya Mübadiləsi Sisteminin (bundan sonra – Sistem) formalaşdırılmasının, aparılmasının, habelə Sistemlə bağlı mühafizə tədbirlərinin təmin edilməsinin hüquqi, təşkilati və texnoloji əsaslarını, idarə olunmasını və Sistemdən istifadə qaydalarını müəyyən edir.

1.2. Sistem "Elektron imza və elektron sənəd haqqında" Azərbaycan Respublikasının Qanunu, Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 sentyabr tarixli 263 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi Qaydaları" (bundan sonra – Qaydalar) və digər normativ hüquqi aktlar əsasında fəaliyyət göstərir.

1.3. Sistem Naxçıvan Muxtar Respublikasında rəqəmsallaşmanın təmin olunması, idarələrarası sənəd dövriyyəsinin daha təkmil formada həyata keçirilməsi məqsədilə hazırlanmışdır.

1.4. Sistemin fəaliyyətinin təşkilini, inkişaf etdirilməsini, idarə edilməsini və həyata keçirilməsinə nəzarəti Naxçıvan Muxtar Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi (bundan sonra – Nazirlik) həyata keçirir.

1.5. Sistemin qurulması, hazırlanması, işləməsi, saxlanması, fəaliyyəti və inkişaf etdirilməsi üçün zəruri xərclər Naxçıvan Muxtar Respublikasının büdcəsi, iştirakçıların Sistemin xidmətlərindən istifadəyə görə ödədiyi vəsait və qanunvericilikdə nəzərdə tutulmuş digər mənbələr hesabına maliyyələşdirilir.

1.6. Nazirlik Sistemin fasiləsiz fəaliyyətini təmin edir və iş saatlarında texniki dəstək göstərir, iştirakçının müraciəti əsasında istifadəçi üçün elektron kabinet yaradır, profilləri və səlahiyyətləri sifarişlərə uyğun olaraq təmin edir.

1.7. Sistemə qoşulmaq üçün iştirakçılar Nazirliklə müqavilə bağlayır.

1.8. Sistemin formalaşdırılmasına, aparılmasına, inteqrasiyasına və arxivləşdirilməsinə dair bu Əsasnamə ilə tənzimlənməyən digər məsələlər Qaydalara uyğun olaraq tənzimlənir.

1.9. Bu Əsasnamə dövlət sirri təşkil edən məlumatların dövriyyəsinə şamil edilmir.

1.10. Sistemin yaradılması və istifadəsi prosesində "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq informasiyanın mühafizəsinə dair tələblərə riayət edilməlidir.

**2. Əsas anlayışlar**

2.1. Bu Əsasnamədə aşağıdakı anlayışlardan istifadə edilir:

2.1.1. iştirakçı – müvafiq müqavilə əsasında Sistemdən informasiya əldə etmək və ya ötürmək hüququ verilmiş dövlət orqanları, yerli özünüidarəetmə orqanları və digər qurumlar;

2.1.2. istifadəçi – iştirakçı tərəfindən sahib ilə razılaşdırmaqla Sistemdən istifadəsinə xüsusi icazə verilmiş şəxs;

2.1.3. sahib – bu Əsasnamə ilə müəyyən edilmiş qaydada Sistemin məxsus olduğu, sahiblik və istifadə hüququnu həyata keçirən Nazirlik;

2.1.4. operator – Sistemin fəaliyyətinin həyata keçirilməsi üzrə Nazirliyin hüquq və vəzifələrini həvalə etdiyi struktur bölmə və ya şəxs;

2.1.5. elektron informasiya mübadiləsi – mərkəzləşdirilmiş hesabatlılıq sistemi, qiymətləndirmə, tapşırıqların idarə edilməsi, planlaşdırma, iştirakçılar arasında elektron sənəd mübadiləsi və sistem çərçivəsində sənədlərin hərəkəti üzrə uçotun aparılması;

2.1.6. idarələrarası elektron informasiya mübadiləsi sistemi – Nazirlik tərəfindən yaradılmış muxtar respublika üzrə vahid informasiya mübadiləsi sistemi;

2.1.7. elektron kabinet – iştirakçıların özləri barəsindəki məlumatlarla tanış olmasını, onları əldə etməsini və dəyişdirməsini, xidmətlərdən istifadə etməsini, ödənişlər həyata keçirməsini, həmçinin sahib və operator ilə qarşılıqlı əlaqəsini təmin edən fərdi elektron səhifə.

**3. Sistemin iştirakçıları**

3.1. Sistemin iştirakçıları aşağıdakılardır:

3.1.1. Naxçıvan Muxtar Respublikasının dövlət orqanları;

3.1.2. dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslər, dövlət adından yaradılan publik hüquqi şəxslər;

3.1.3. Sistemdən istifadə etmək üçün müraciət etmiş digər dövlət orqanları (qurumları).

**4. Sistemin fəaliyyət prinsipləri**

4.1. Sistem bu Əsasnamənin 2.1-ci bəndi nəzərə alınmaqla formalaşdırılır və aşağıdakı prinsiplər əsasında fəaliyyət göstərir:

4.1.1. istifadə rahatlığı – Sistemdən istifadənin və informasiya mübadiləsinin rahat, əlavə əməliyyatlar aparılmadan təmin edilməsi;

4.1.2. operativlik – müvafiq sənədlərin və müraciətlərin təqdim edilməsinin, qəbulunun, cavablandırılmasının, informasiyanın əldə olunmasının və mübadiləsinin avtomatlaşdırılmış qaydada həyata keçirilməsi;

4.1.3. fasiləsizlik – Sistemdə aparılan təşkilati, inzibati, texniki və digər dəyişikliklərdən asılı olmayaraq, fəaliyyətin fasiləsiz həyata keçirilməsi;

4.1.4. şəffaflıq – Sistemin fəaliyyətində aşkarlığın və hesabatlılığın təmin edilməsi, həyata keçirilən prosedurların və onların nəticələrinin izlənilməsi imkanının mövcudluğu.

**5. Sistemin texnoloji infrastrukturu**

5.1. Sistemin texnoloji infrastrukturu aşağıdakı komponentlərdən ibarətdir:

5.1.1. Sistemin əsas serveri, şəbəkə və yardımçı texnoloji infrastrukturu;

5.1.2. Sistem iştirakçılarının şəbəkə infrastrukturu;

5.1.3. Sistemin proqram təminatı və informasiya ehtiyatları;

5.1.4. Sistemin mərkəzi və ehtiyat avadanlıq texnologiyaları;

5.1.5. digər sistemlərlə inteqrasiyalar.

5.2. Sistemin proqram kompleksinə əməliyyat sistemləri, tətbiqi proqram təminatı, informasiyanın mühafizəsi və digər proqram vasitələri aiddir.

5.3. Tətbiqi proqram təminatına aşağıdakılar daxildir:

5.3.1. dövlət və digər informasiya sistemləri ilə məlumat mübadiləsini təmin edən inteqrasiya və elektron məlumat sorğulama modulu;

5.3.2. analitik təhlil və statistik hesabat modulu.

5.4. Sistemin şəbəkə infrastrukturunu kommunikasiya avadanlığı və mühafizə olunan telekommunikasiya kanalları təşkil edir.

5.5. İnformasiya ehtiyatı bütün informasiya axını və icra vəziyyəti barədə məlumatları ehtiva edir. İnformasiya ehtiyatının əsas və ehtiyat nüsxələri mövcuddur.

5.6. İştirakçılar Sistemə qoşulmaq üçün şəbəkə infrastrukturunu və avtomatlaşdırılmış (kompüter quraşdırılmış) iş yerlərini təmin edir. Texniki vasitələr onların mühafizəsini, həmçinin göndərilən və qəbul edilən informasiyaların təhlükəsizliyini təmin edən və texniki istismar tələblərinə cavab verən otaqlarda yerləşdirilməlidir.

5.7. İştirakçıların şəbəkə infrastrukturunda əlavə texniki vasitələrin yerləşdirilməsi və (və ya) onların yerinin dəyişdirilməsi zərurəti yarandıqda, müvafiq infrastrukturun yaradılması, alınmış avadanlığın və proqram təminatının quraşdırılması işləri iştirakçının maliyyə vəsaiti hesabına Nazirlik tərəfindən həyata keçirilir.

**6. Sistemin funksionallığına dair tələblər**

6.1 Sistem vasitəsilə aşağıdakılar təmin edilir:

6.1.1. informasiyanın informasiya ehtiyatında toplanması, emalı, axtarışı, təhlili və ötürülməsi;

6.1.2. Sistemə daxil edilən məlumatların dəqiqliyi, tamlığı, aktuallığı və etibarlılığı;

6.1.3. Sistemin fasiləsiz fəaliyyətinin təmin edilməsi;

6.1.4. Sistemdən, eyni zamanda çoxsaylı iştirakçıların istifadə etməsinin mümkünlüyü;

6.1.5. təhlükəsizlik və məlumatların mühafizəsi;

6.1.6. iştirakçılar tərəfindən informasiya mübadiləsində bir-biri ilə uzlaşa bilən texnologiyaların, formatların, protokolların və proqram-texniki vasitələrin tətbiq edilməsi, eləcə də yalnız Nazirlik tərəfindən yaradılmış şəbəkə infrastrukturunda istifadə edilməsi;

6.1.7. iştirakçılar və istifadəçilər tərəfindən ərizə, şikayət və digər sənədlərin elektron formada tərtib edilməsi, göndərilməsi, qəbulu, sənədlərin elektron qeydiyyatı və elektron dövriyyəsi;

6.1.8. analitik təhlil və statistikanın elektron qaydada aparılması;

6.1.9. məlumatların sistemləşdirilmiş şəkildə saxlanılması;

6.1.10. Azərbaycan Respublikasında fəaliyyət göstərən rəqəmsal sistemlərə inteqrasiya olunması;

6.1.11 xidmətlər portfelinə uyğun olaraq təşkilatın strukturu nəzərə alınmaqla istifadəçi adı və səlahiyyətlərin verilməsi;

6.1.12 iştirakçılar tərəfindən təchiz edilmiş yalnız sertifikatlaşdırılmış proqram təminatı, eləcə də təhlükəsizliyi təmin edilmiş və antivirus proqramı yüklənilmiş kompüterlərdən istifadə olunması;

6.1.13. istifadəçilər tərəfindən səlahiyyətləri çərçivəsində istifadə edilməsi və verilən məlumatların tamlığının təmin edilməsi;

6.1.14. iştirakçılar tərəfindən Sistem üzərindən hesabatların göndərilməsi.

**7. Sahibin funksiyaları, hüquqları və vəzifələri**

7.1. Sahibin əsas funksiyaları aşağıdakılardır:

7.1.1. Sistemin təşkilati və metodiki təminatını həyata keçirmək;

7.1.2. idarələrarası informasiya mübadiləsi üçün Sistemin layihələndirilməsi, inkişafı və saxlanması sahəsində digər texnoloji işləri həyata keçirmək;

7.1.3. Sistemin təşkilati təlimatlarına, ümumi məlumatların qorunması qaydalarına və qanunauyğun istismarına nəzarəti həyata keçirmək, bu tələblər pozulduğu hallarda məsuliyyət daşıyan tərəfləri müəyyən etmək;

7.1.4. dövlət orqanlarının (qurumların) Sistemə qoşulmasını həyata keçirmək.

7.2. Sahibin aşağıdakı hüquqları vardır:

7.2.1. bu Əsasnamə ilə müəyyən edilmiş qaydada iştirakçıların öhdəliklərini yerinə yetirməməsi hallarında iştirakçıların Sistemə giriş imkanını ləğv etmək;

7.2.2. əldə olunması qanunla məhdudlaşdırılan, o cümlədən xidməti istifadə üçün nəzərdə tutulan informasiyadan yalnız müvafiq normativ hüquqi aktlara uyğun şəkildə istifadə məqsədilə həmin məlumatların ötürülməsində məhdudiyyətlər tətbiq etmək;

7.2.3. iştirakçının və istifadəçinin yazılı müraciəti əsasında Sistemdə saxlanılan məlumatlarda dəyişiklik etmək.

7.3. Sahibin aşağıdakı vəzifələri vardır:

7.3.1. iştirakçıların Sistemə giriş hüququnu təmin etmək;

7.3.2. iştirakçılarla məlumatların elektron formada mübadiləsinin bu Əsasnamənin tələblərinə uyğun olaraq təmin etmək;

7.3.3. Sistemin təkmilləşdirilməsi və onun funksional imkanlarının artırılması istiqamətində tədbirlər görmək;

7.3.4. Sistemin funksiyaları barədə iştirakçıları və istifadəçiləri məlumatlandırmaq, onlara metodiki kömək göstərmək, bu sahədə mütəmadi bilik və bacarıqlarının artırılması məqsədilə təlimlər təşkil etmək;

7.3.5. Sistemin komponentlərinin və proqram təminatının təyinatı üzrə istismarını, texniki xidmətini, saxlanılmasını, tərtib olunmuş qrafik üzrə operator tərəfindən müvafiq profilaktik işlərin aparılmasını təşkil etmək, nəzarəti həyata keçirmək;

7.3.6. Sistemə daxil edilmiş məlumatların təhlükəsizliyinin təmin edilməsi istiqamətində zəruri təşkilati və texniki tədbirlər görmək;

7.3.7. Sistemdəki məlumatların aktuallığını, etibarlılığını, əlçatanlığını, tamlığını, habelə onların ehtiyat surətlərinin saxlanmasını və qorunmasını təşkil etmək;

7.3.8. Sistemin informasiya ehtiyatında dəyişiklikləri müvafiq qeydlər etməklə aparmaq, belə qeydlər üçün əsas olan sənədləri müvafiq sənədlər qovluğuna daxil etmək;

7.3.9. Sistem üzrə statistik hesabatlar hazırlamaq və onlar əsasında təhlillər aparmaq;

7.3.10. iştirakçıların tələbi əsasında onlar barədə məlumatlarda aparılan düzəlişləri təsdiq və ya belə düzəlişləri etməkdən imtina etmək;

7.3.11. Sistemin fəaliyyətini bu Əsasnamə üzrə müəyyən edilmiş qaydada təşkil etmək, onun formalaşdırılmasına, aparılmasına, inteqrasiyasına, arxivləşdirilməsinə, dayanıqlı və etibarlı fəaliyyətinin təmin edilməsinə nəzarət etmək.

**8. Operatorun funksiyaları, hüquqları və vəzifələri**

8.1. Operatorun əsas funksiyaları aşağıdakılardır:

8.1.1. Sistemin əsas şəbəkə infrastrukturunda olan və Sistem iştirakçılarının şəbəkə infrastrukturunda mühafizə olunan rabitə kanalları ilə göndərilən informasiyanı icazəsiz daxilolmalardan və təhrifetmələrdən mühafizə etmək;

8.1.2. Sistemin iştirakçıları arasında elektron sənəd mübadiləsinin həyata keçirilməsini təmin etmək;

8.1.3. Sistemin texnoloji infrastrukturunun istismarını təmin etmək;

8.1.4. Sistemin informasiya təhlükəsizliyini təmin etmək;

8.1.5. iştirakçılarda elektron sənəd mübadiləsini bilavasitə həyata keçirən məsul şəxslərin Sistemdən istifadə vərdişlərinin formalaşdırılmasını və daim təkmilləşdirilməsini sahib ilə birlikdə təmin etmək.

8.2. Sistemin texnoloji infrastrukturunun istismarının təmin edilməsi Sistemin operatoru tərəfindən aşağıdakı kompleks tədbirlərin görülməsi yolu ilə həyata keçirilir:

8.2.1. proqram-texniki vasitələrin işlək vəziyyətdə olmasının təmin edilməsi;

8.2.2. dövlət orqanlarının (qurumların) elektron informasiya mübadiləsi sistemlərinin müvafiq elektron sənəd dövriyyəsi sistemlərinə qoşulması üçün tədbirlərin həyata keçirilməsi;

8.2.3. dövlət orqanlarının (qurumların) elektron informasiya mübadiləsi sisteminin müvafiq elektron sənəd dövriyyəsi sistemlərinə inteqrasiyası üçün onların informasiya təhlükəsizliyi tələblərinə cavab verməsi ilə bağlı rəy verilməsi;

8.2.4. Sistemin təşkili və fəaliyyəti üzrə qiymətləndirmələrin aparılması və nəticəsi barədə arayışların, hesabatların hazırlanması;

8.2.5. Sistemdən istifadə ilə bağlı qurumlara metodiki köməklik göstərilməsi.

8.3. Sistem elektron sənədlərə baxılmasının vəziyyəti barədə iştirakçılar üçün xəbərdarlıq verilməsini təmin etməlidir.

8.4. Operatorun aşağıdakı hüquqları vardır:

8.4.1. Sistemin təkmilləşdirilməsi istiqamətində rəy və təkliflər vermək;

8.4.2. məlumat mübadiləsində iştirak edəcək texnoloji infrastrukturların texniki və funksional tələblərə cavab verməyi hallarda onlarda zəruri dəyişiklik və təkmilləşdirmə aparılması məqsədilə məsələ qaldırmaq;

8.4.3. digər informasiya ehtiyatları və sistemləri ilə məlumat mübadiləsinin təşkili üçün zəruri tədbirlər görmək.

8.5. Operatorun aşağıdakı vəzifələri vardır:

8.5.1. Sistem vasitəsilə iştirakçının dayanıqlı, fasiləsiz, etibarlı və təhlükəsiz məlumat mübadiləsi aparmasını təmin etmək;

8.5.2. Sistemin proqram kompleksinə nəzarəti həyata keçirmək və mütəmadi texniki baxışları təşkil etmək;

8.5.3. proqram təminatının lisenziyalaşdırılmasını, lisenziyalı proqram təminatlarının işlək vəziyyətdə olmasını və yenilənməsini təmin etmək;

8.5.4. informasiya ehtiyatının ehtiyat nüsxəsinin saxlanılması üçün tədbirlər görmək;

*Ardı 5-ci səhifədə*

8.5.5. müəyyən edilmiş qrafik üzrə, eləcə də sahibin tapşırığı əsasında Sistemin yerləşdiyi server və şəbəkə avadanlığına profilaktik baxış keçirilməsini təmin etmək və aktlaşdırmaq;

8.5.6. mütəmadi olaraq şəbəkə infrastrukturunda məlumatötürmə surətini ölçmək və fasilələr yaranmasının səbəblərini müəyyən etmək məqsədilə monitorinqlər keçirmək;

8.5.7. Sistemə daxil edilən məlumatların tamlığını, təhrifolunmazlığını, əlçatanlığını, konfidensiallığını (məxfiliyini) və mühafizəsini təmin etmək;

8.5.8. Sistemdən istifadə zamanı yaranan nasazlıqları aradan qaldırmaq məqsədilə təxirəsalınmaz tədbirlər görmək;

8.5.9. mərkəzi və ehtiyat avadanlığında hər hansı bir qəza (xəta) baş verdiyi və Sistemin fəaliyyətində hər hansı fasilə yarandığı halda sahibi bu barədə məlumatlandırmaq;

8.5.10. sahibin tapşırığına uyğun olaraq qanunvericilikdə edilmiş dəyişikliklərə əsasən proqram təminatında uyğunlaşdırmaların aparılmasını, eləcə də yeni proqram modullarının yazılmasını və sınaqların keçirilməsini təmin etmək;

8.5.11. informasiya ehtiyatı üzrə sahibin tələb etdiyi məzmunda hesabatlar hazırlamaq;

8.5.12. qanunsuz daxilolma və saxtalaşdırma hallarının qarşısını almaq, habelə giriş və əməliyyat tarixçələrini (loqları) saxlamaq;

8.5.13. Sistemin dayanıqlı və fasiləsiz fəaliyyətini, Sistemin komponentlərinin və proqram təminatının təyinatı üzrə istismarını, texniki xidmətini, təmirini və yenilənməsini, habelə təkmilləşdirilməsi üzrə profilaktik işlərin görülməsini təmin etmək.

**9. İştirakçıların funksiyaları, hüquqları və vəzifələri**

9.1. İştirakçıların əsas funksiyaları aşağıdakılardır:

9.1.1. idarələrarası elektron informasiya mübadiləsi çərçivəsində elektron sənəd mübadiləsini bilavasitə həyata keçirəcək məsul şəxsləri müəyyən etmək;

9.1.2. mühafizə olunan şəbəkə infrastrukturunda informasiyanın icazəsiz daxilolmalardan və təhrifetmələrdən mühafizəsini təmin etmək;

9.1.3. məlumatların dəqiqliyini, informasiya təhlükəsizliyini və məxfiliyini qorumaq, məlumatların saxlanması və silinməsi üçün tənzimləyici tələblərə uyğun istifadəsini və işlənməsini təmin etmək;

9.1.4. Sistemi təşkilati proseslərə uyğun olaraq qurum daxilində idarə etmək, əlaqələndirmək və inteqrasiyası üçün zəruri tədbirləri həyata keçirmək.

9.2. İstifadə olunan avadanlıqlar vasitəsilə (kompüterlər, səyyar informasiya daşıyıcıları, və s) məlumatların əldə olunması və Sistemdə işlənməsi iştirakçılar tərəfindən həyata keçirilir.

9.3. İştirakçılar elektron sənədlərlə bağlı kargüzarlığı Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 27 sentyabr tarixli 935 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Dövlət orqanlarında, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında kargüzarlığın aparılmasına dair Təlimat"a uyğun həyata keçirir.

9.4. İştirakçıların aşağıdakı hüquqları vardır:

9.4.1. Sistemin işinin təkmilləşdirilməsi ilə bağlı təkliflər vermək;

9.4.2. Sistemdə məlumatları yoxlamaq, zəruri sənəd və arayışlara dair məlumatları əldə etmək və ötürmək;

9.4.3. fəaliyyət istiqamətlərinə aid olan xidmətlərdən Sistem vasitəsilə istifadə etmək;

9.4.4. xidmətlərdən istifadə etmək üçün elektron kabinet yaratmaq.

9.5. İştirakçıların aşağıdakı vəzifələri vardır:

9.5.1. məlumatları tam və ətraflı şəkildə Sistemə daxil etmək, bu məlumatların təhlükəsizliyinin təmin edilməsi üçün zəruri tədbirlər görmək;

9.5.2. daxil olan sənədləri normativ hüquqi aktların tələblərinə uyğun olaraq cavablandırmaq, habelə qeyd edilən sorğular əsasında zəruri sənədləri (məlumatları) təqdim etmək;

9.5.3. Sistemdən və oradakı məlumatlardan yalnız xidməti istifadə üçün istifadə etmək;

9.5.4. Sistemə daxil edilən və iştirakçının bilavasitə fəaliyyəti ilə bağlı olan yeni məlumat və sənədləri daim izləmək;

9.5.5. Sistemə məsul əməkdaş iş yerini dəyişdikdə və ya işdən çıxdıqda, Sistemdən istifadənin dayandırılması barədə sahibə müraciət etmək;

9.5.6. məlumatların mühafizəsini təmin edən avadanlıq və proqram vasitələrinə müdaxilə etməmək;

9.5.7. Sistemdən istifadə zamanı kompüterin monitorunda əks olunan məlumatları istifadəçidən kənar şəxslərin oxumasına yol verməmək, eləcə də internet şəbəkəsi vasitəsilə yayımlamamaq;

9.5.8. Sistemə daxil olmağa imkan verən elektron imza vasitələrinin konfidensiallığını (məxfiliyini) pozmamaq;

9.5.9. məlumatların mühafizəsi ilə bağlı tədbirlərin yoxlanılmasını həyata keçirən şəxslərə maneələr yaratmamaq;

9.5.10. Sistemin fəaliyyətinə zərər gətirəcək, habelə onun fəaliyyətinin ləngiməsinə və ya dayanmasına səbəb ola biləcək hərəkətlərə yol verməmək.

**10. Sistemin fəaliyyətinin təşkili**

10.1. Sahib Sistemin fəaliyyətinin və təhlükəsizliyinin təşkilini, aidiyyəti dövlət orqanları (qurumları) ilə qarşılıqlı fəaliyyətin əlaqələndirilməsini həyata keçirir.

10.2. Sahib Sistem daxilində informasiya ehtiyatlarından istifadəyə buraxılış səlahiyyətlərini müəyyən edir.

10.3. Sistemə daxil edilən məlumatlar dəqiq, dolğun olmalı, zəruri xanalar tam doldurulmalı və anonimləşdirilən məlumatlar istisna olmaqla, sözlər ixtisarla ifadə edilməməlidir.

10.4. Məlumatlar Sistemə Azərbaycan Respublikasının dövlət dilində daxil edilməlidir.

10.5. İştirakçı Sistemə daxil edilən məlumatların dəqiqliyi, tamlığı, o cümlədən Sistemə məsul əməkdaş ilə bağlı fəaliyyətlərə görə məsuliyyət daşıyır.

10.6. Sistemə daxil edilmiş məlumatlarda çatışmazlıqlar aşkar olunduqda, iştirakçının yazılı müraciəti əsasında operator çatışmazlıqları aradan qaldırır.

**11. Sistemdən istifadə qaydası**

11.1. Sistemdən istifadə elektron kabinet vasitəsilə həyata keçirilir.

11.2. İştirakçılar və istifadəçilər Vahid Giriş Sistemi ("ASAN login") ilə eyniləşdirildikdən sonra avtomatik qaydada yaradılmış elektron kabinetləri vasitəsilə özlərinə aid sənədləri (məlumatları) əldə edə, habelə onların gücləndirilmiş elektron imza ilə təsdiq edilmiş elektron variantlarını çap edə və digər əməliyyatlar həyata keçirə bilərlər.

11.3. İştirakçılar, həmçinin Sistemdə yaradılan elektron kabinetləri vasitəsilə özləri haqqında toplanan məlumatlarda dəyişiklik edilməsi barədə müraciət edə, habelə həmin məlumatlardan istifadə olunması barədə informasiyanı əldə edə (onlarla tanış ola) bilərlər.

11.4. Sahib iştirakçının Sistemdəki məlumatlarına (elektron kabinetə) giriş hüquqlarını aşağıdakı hallarda məhdudlaşdıra bilər:

11.4.1. Sistemə qeyri-qanuni daxilolma və ya müdaxilə baş verdikdə;

11.4.2. bu Əsasnamədə müəyyən edilmiş tələblər yerinə yetirilmədikdə.

# "Naxçıvan Muxtar Respublikasının 2024-cü il büdcəsi haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Naxçıvan Muxtar Respublikasının

# Q A N U N U

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 25-ci maddəsinin I hissəsinin 2-ci bəndini rəhbər tutaraq Naxçıvan Muxtar Respublikasının Ali Məclisi **qərara alır:**

"Naxçıvan Muxtar Respublikasının 2024-cü il büdcəsi haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda aşağıdakı dəyişikliklər edilsin:

1. 1 – 4-cü və 6-cı maddələr aşağıdakı redaksiyada verilsin:

"**Maddə 1.** Naxçıvan Muxtar Respublikasının 2024-cü il büdcəsinin gəlirləri 190 484 816,0 manat, xərcləri 539 265 000,0 manat, gəlir və xərcləri tənzimləmək üçün ayrılan dotasiya 336 460 000,0 manat (o cümlədən, mərkəzləşdirilmiş gəlirləri 147 726 616,0 manat, yerli gəlirləri 42 758 200,0 manat, mərkəzləşdirilmiş xərcləri 490 122 100,0 manat, yerli xərcləri 49 142 900,0 manat) məbləğində təsdiq edilsin.

**Maddə 2**. Naxçıvan Muxtar Respublikasının 2024-cü il büdcəsinin gəlirləri mədaxil mənbələri üzrə aşağıdakı məbləğlərdə nəzərdə tutulsun:

| Sıra №-si | Gəlirlərin mənbələri | Məbləğ (manatla) |
|---|---|---|
| 2.1. | Fiziki şəxslərin gəlir vergisi | 43 000 000,0 |
| 2.2. | Hüquqi şəxslərin mənfəət (gəlir) vergisi | 13 200 000,0 |
| 2.3. | Hüquqi şəxslərin torpaq vergisi | 300 000,0 |
| 2.4. | Hüquqi şəxslərin əmlak vergisi | 2 100 000,0 |
| 2.5. | Əlavə dəyər vergisi | 52 500 000,0 |
| 2.6. | Sadələşdirilmiş vergi | 4 500 000,0 |
| 2.7. | Aksizlər | 50 488 000,0 |
| 2.8. | Yol vergisi | 12 000 816,0 |
| 2.8.1. | Xarici dövlətlərdə qeydiyyatda olan avtonəqliyyat vasitələri sahibləri tərəfindən ödənilən yol vergisi | 12 000 816,0 |
| 2.9. | Mədən vergisi | 1 260 000,0 |
| 2.10. | Dövlət əmlakının icarəyə verilməsindən daxilolmalar | 60 000,0 |
| 2.11. | Dövlət mülkiyyətində olan torpaqların icarəyə verilməsindən daxilolmalar | 80 000,0 |
| 2.12. | Dövlət rüsumu | 6 427 000,0 |
| 2.13. | Vergi orqanlarının xətti ilə toplanan sair daxilolmalar | 160 000,0 |
| 2.14. | Büdcə təşkilatlarının ödənişli xidmətlərindən daxilolmalar | 3 709 000,0 |
| 2.15. | Sair daxilolmalar | 700 000,0 |

**Maddə 3.** Müəyyən edilsin ki, "Avtomobil Yolları" Məqsədli Büdcə Fondu muxtar respublika büdcəsinin aşağıdakı mədaxil mənbələri hesabına formalaşır:

| | | |
|---|---|---|
| 3.1. | "Avtomobil Yolları" Məqsədli Büdcə Fondu | 12 870 816,0 |
| 3.1.1. | Yol vergisi | 12 000 816,0 |
| 3.1.2. | Mülkiyyətində və ya istifadəsində olan avtonəqliyyat vasitələri ilə sərnişin və yük daşımalarını həyata keçirən şəxslər tərəfindən ödənilən sadələşdirilmiş vergi | 150 000,0 |
| 3.1.3. | Nəqliyyat vasitələrinin, o cümlədən motonəqliyyat vasitələrinin, qoşquların və yarımqoşquların texniki baxışdan keçirilməsi üçün tutulan dövlət rüsumu | 720 000,0 |

**Maddə 4.** Naxçıvan Muxtar Respublikasının 2024-cü il büdcəsinin xərcləri funksional təsnifatın bölmə və köməkçi bölmələri səviyyəsində aşağıdakı məqsədlərə yönəldilir:

| Sıra №-si | Xərclərin istiqamətləri | Məbləğ (manatla) |
|---|---|---|
| 4.1. | Ümumi dövlət xidmətləri | 81 106 253,0 |
| 4.1.1. | qanunvericilik və icra hakimiyyəti, yerli özünüidarəetmə orqanlarının fəaliyyəti | 76 344 024,0 |
| 4.1.2. | elm | 3 680 706,0 |
| 4.1.3. | seçkilərin keçirilməsi və statistika tədbirləri | 1 081 523,0 |
| 4.2. | Məhkəmə hakimiyyəti, hüquq-mühafizə və prokurorluq | 90 027 995,0 |
| 4.2.1. | məhkəmə hakimiyyəti | 10 527 875,0 |
| 4.2.2. | hüquq-mühafizə | 72 370 518,0 |
| 4.2.3. | prokurorluq | 6 722 990,0 |
| 4.2.4. | məhkəmə qərarlarının icrası | 250 000,0 |
| 4.2.5. | hüquqi yardım | 156 612,0 |
| 4.3. | Təhsil | 160 076 586,0 |
| 4.3.1. | məktəbəqədər təhsil | 10 193 650,0 |
| 4.3.2. | ümumi təhsil | 115 619 159,0 |
| 4.3.3. | peşə təhsili | 1 892 192,0 |
| 4.3.4. | orta ixtisas təhsili | 3 417 270,0 |
| 4.3.5. | təhsil sahəsində digər müəssisə və tədbirlər | 28 954 315,0 |
| 4.4. | Səhiyyə | 12 534 897,0 |
| 4.4.1. | xəstəxanalar | 6 125 483,0 |
| 4.4.2. | səhiyyə sahəsində proqramlar və digər xidmətlər | 6 409 414,0 |
| 4.5. | Sosial müdafiə və sosial təminat | 9 699 431,0 |
| 4.5.1. | sosial müdafiə | 840 071,0 |
| 4.5.2. | sosial müdafiə və sosial təminat sahələri üzrə digər müəssisə və tədbirlər | 8 859 360,0 |
| 4.6. | Mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi, gənclər siyasəti və bu qəbildən olan digər fəaliyyət | 26 242 093,0 |
| 4.6.1. | mədəniyyət və incəsənət sahəsində fəaliyyət | 18 120 187,0 |
| 4.6.2. | televiziya, radio və nəşriyyat | 5 617 482,0 |
| 4.6.3. | bədən tərbiyəsi və gənclər siyasəti | 627 535,0 |
| 4.6.4. | yaradıcı ittifaq, cəmiyyət və dini tədbirlər | 402 977,0 |
| 4.6.5. | mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi, gənclər siyasəti və bu qəbildən olan digər müəssisə və tədbirlər | 1 473 912,0 |
| 4.7. | Mənzil və kommunal təsərrüfatı | 16 308 880,0 |
| 4.7.1. | mənzil təsərrüfatı | 915 211,0 |
| 4.7.2. | kommunal təsərrüfatı | 11 832 703,0 |
| 4.7.3. | mənzil və kommunal təsərrüfatı ilə bağlı digər xidmətlər | 3 560 966,0 |
| 4.8. | Kənd təsərrüfatı | 43 475 195,0 |
| 4.8.1. | kənd təsərrüfatı tədbirləri | 10 440 237,0 |
| 4.8.2. | baytarlıq | 2 316 558,0 |
| 4.8.3. | meliorasiya | 30 718 400,0 |
| 4.9. | Ətraf mühitin mühafizəsi | 14 585 463,0 |
| 4.9.1. | bioloji zənginliyin qorunması | 868 800,0 |
| 4.9.2. | torpaq və yerquruluşu | 820 000,0 |
| 4.9.3. | hidrometeorologiya tədbirləri | 1 058 500,0 |
| 4.9.4. | meşə təsərrüfatı | 1 072 400,0 |
| 4.9.5. | ərazilərin təmizlənməsi, çirkab suların yığılması və təmizlənməsi | 10 262 163,0 |
| 4.9.6. | ətraf mühitin mühafizəsi sahəsinə aid edilən digər xidmətlər | 503 600,0 |
| 4.10. | İqtisadi fəaliyyət | 47 936 223,0 |
| 4.10.1. | nəqliyyat və rabitə | 14 115 763,0 |
| 4.10.2. | iqtisadi və kommersiya fəaliyyəti | 1 209 823,0 |
| 4.10.3. | tikinti və şəhərsalma | 25 500 000,0 |
| 4.10.3.1. | dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) | 25 500 000,0 |
| 4.10.4. | geodeziya və faydalı qazıntılar | 500 000,0 |
| 4.10.5. | yanacaq və enerji kompleksi | 3 207 010,0 |
| 4.10.6. | iqtisadi fəaliyyət ilə bağlı digər xidmətlər | 3 403 627,0 |
| 4.11. | Əsas bölmələrə aid edilməyən xərclər | 37 271 984,0 |
| 4.11.1. | ehtiyat fondları | 9 500 000,0 |
| 4.11.1.1. | Naxçıvan Muxtar Respublikasının Ehtiyat Fondu | 9 500 000,0 |
| 4.11.2. | məqsədli büdcə fondları | 25 891 000,0 |
| 4.11.2.1. | "Avtomobil Yolları" Məqsədli Büdcə Fondu | 25 191 000,0 |
| 4.11.2.2 | Naxçıvan Muxtar Respublikası Ətraf mühitin mühafizəsi və təbii ehtiyatlardan istifadə üzrə dövlət fondu | 700 000,0 |
| 4.11.3. | əsas bölmələrə aid edilməyən tədbirlər üzrə digər fəaliyyət | 1 880 984,0 |
| 4.11.3.1. | fövqəladə halların nəticələrinin aradan qaldırılması ilə bağlı xərclər | 1 000 000,0 |
| 4.11.3.2 | ehtiyata və ya istefaya buraxılmış hərbçilərə mənzil kirayəsi ilə bağlı xərclər | 650 984,0 |
| 4.11.3.3. | digər tədbirlər üzrə xərclər | 230 000,0 |

**Maddə 6.** Naxçıvan Muxtar Respublikasının şəhər və rayonları üzrə gəlirlər 71 331 000,0 manat, o cümlədən "Avtomobil Yolları" Məqsədli Büdcə Fonduna aid olan məbləğ 150 000,0 manat, yerli xərclər 49 142 900,0 manat, gəlirlərin yerli xərclərdən artıq olan və mərkəzləşdirilmiş gəlirlərə aid edilən hissəsinin məbləği 28 422 800,0 manat, yerli gəlir və xərcləri tənzimləmək üçün mərkəzləşdirilmiş xərclərdən ayrılması nəzərdə tutulan vəsaitin yuxarı həddi 6 384 700,0 manat məbləğində təsdiq edilsin.

(manatla)

| Sıra №-si | Şəhər və rayonların adı | Gəlirlər | | Yerli xərclər | Gəlirlərin yerli xərclərdən artıq olan və mərkəzləşdirilmiş gəlirlərə aid edilən hissəsinin aşağı həddi | Yerli gəlir və xərcləri tənzimləmək üçün mərkəzləşdirilmiş xərclərdən ayrılması nəzərdə tutulan vəsaitin yuxarı həddi |
|---|---|---|---|---|---|---|
| | | Cəmi | o cümlədən "Avtomobil Yolları" Məqsədli Büdcə Fonduna aid olan məbləğ | | | |
| | **Şəhər** | | | | | |
| 1. | Naxçıvan | 41 852 000 | 40 000 | 16 974 400 | 24 837 600 | |
| | **Rayonlar** | | | | | |
| 2. | Şərur | 8 499 000 | 20 000 | 7 269 000 | 1 210 000 | |
| 3. | Babək | 7 104 000 | 40 000 | 5 105 400 | 1 958 600 | |
| 4. | Ordubad | 3 300 000 | 10 000 | 5 293 100 | | 2 003 100 |
| 5. | Culfa | 3 500 000 | 20 000 | 5 132 100 | | 1 652 100 |
| 6. | Şahbuz | 3 100 000 | 12 000 | 4 299 500 | | 1 211 500 |
| 7. | Kəngərli | 3 271 000 | 7 000 | 2 847 400 | 416 600 | |
| 8. | Sədərək | 705 000 | 1 000 | 2 222 000 | | 1 518 000 |
| | **Cəmi:** | **71 331 000** | **150 000** | **49 142 900** | **28 422 800** | **6 384 700** |

2. Aşağıdakı məzmunda 7-1-ci maddə əlavə edilsin:

**"Maddə 7-1.** Naxçıvan Muxtar Respublikasının 2024-cü il büdcəsinin (o cümlədən "Avtomobil Yolları" Məqsədli Büdcə Fondunun) kəsiri 12 320 184 manat məbləğində təsdiq edilsin və həmin kəsrin bağlanması "Avtomobil Yolları" Məqsədli Büdcə Fondunun 2024-cü il yanvarın 1-nə olan həmin məbləğdə vəsait qalığı hesabına təmin edilsin.".

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisi sədrinin müavini** **Anar İBRAHİMOV**

*Naxçıvan şəhəri, 16 avqust 2024-cü il*

## "Naxçıvan Muxtar Respublikasının 2024-cü il büdcəsi haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Naxçıvan Muxtar Respublikasının 2024-cü il 16 avqust tarixli 37-VI QN nömrəli Qanununun tətbiqi və "Naxçıvan Muxtar Respublikasının 2024-cü il büdcəsi haqqında" Naxçıvan Muxtar Respublikasının 2023-cü il 22 dekabr tarixli 32-VI QN nömrəli Qanununun tətbiqi barədə" Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2023-cü il 28 dekabr tarixli 223-VI FR nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

## Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin Fərmanı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini və 30-cu maddəsini rəhbər tutaraq, "Naxçıvan Muxtar Respublikasının 2024-cü il büdcəsi haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Naxçıvan Muxtar Respublikasının 2024-cü il 16 avqust tarixli 37-VI QN nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. "Naxçıvan Muxtar Respublikasının 2024-cü il büdcəsi haqqında" Naxçıvan Muxtar Respublikasının 2023-cü il 22 dekabr tarixli 32-VI QN nömrəli Qanununun tətbiqi barədə" Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2023-cü il 28 dekabr tarixli 223-VI FR nömrəli Fərmanında aşağıdakı dəyişikliklər edilsin:

1.1. 1-ci hissədəki cədvəlin 1.1-ci bəndi, 1.1.1-ci yarımbəndi, 1.1.1.2-ci, 1.1.1.3-cü, 1.1.1.7-ci, 1.1.1.9-cu, 1.1.1.10-cu, 1.1.1.13-cü, 1.1.1.15-ci, 1.1.1.16-cı, 1.1.1.20-ci, 1.1.1.21-ci, 1.1.1.22-ci, 1.1.1.23-cü, 1.1.1.25-ci, 1.1.1.27-ci, 1.1.1.28-ci abzasları, 1.1.2-ci yarımbəndi, 1.1.2.1-ci, 1.1.2.4-cü abzasları, 1.2-ci bəndi, 1.2.1-ci yarımbəndi, 1.2.1.3-cü, 1.2.1.4-cü, 1.2.1.5-ci, 1.2.1.6-cı abzasları, 1.2.2-ci yarımbəndi, 1.2.2.5-ci abzası, 1.2.3-cü, 1.2.4-cü yarımbəndləri, 1.2.4.2-ci abzası, 1.3-cü bəndi, 1.3.2-ci yarımbəndi, 1.3.2.2-ci abzası, 1.3.3-cü yarımbəndi 1.3.3.2-ci abzası, 1.3.4-cü yarımbəndi, 1.3.4.2-ci abzası, 1.4-cü bəndi, 1.4.1-ci yarımbəndi, 1.4.1.1-ci abzası, 1.4.2-ci yarımbəndi, 1.4.2.1-ci abzası, 1.5-ci bəndi, 1.5.1-ci yarımbəndi, 1.5.1.1-ci abzası, 1.5.2-ci yarımbəndi, 1.5.2.3-cü abzası, 1.6-cı bəndi, 1.6.1-ci yarımbəndi, 1.6.1.1-ci abzası, 1.6.2-ci yarımbəndi, 1.6.2.2-ci abzası, 1.6.3-cü yarımbəndi, 1.6.3.1-ci, 1.6.3.1.1-ci abzasları, 1.6.5-ci yarımbəndi, 1.6.5.2-ci abzası, 1.7-ci bəndi, 1.7.1-ci, 1.7.2-ci yarımbəndləri, 1.8-ci bəndi, 1.8.1-ci yarımbəndi, 1.8.1.1-ci, 1.8.1.2-ci, 1.8.1.3-cü abzasları, 1.8.2-ci yarımbəndi, 1.8.2.1-ci, 1.8.2.2-ci abzasları, 1.8.3-cü yarımbəndi, 1.8.3.1-ci, 1.8.3.2-ci abzasları, 1.9-cu bəndi, 1.9.1-ci yarımbəndi, 1.9.1.1-ci abzası, 1.9.3-cü yarımbəndi, 1.9.3.1-ci, 1.9.3.2-ci abzasları, 1.9.4-cü yarımbəndi, 1.9.4.1-ci abzası, 1.9.5-ci yarımbəndi, 1.9.5.1-ci abzası, 1.9.6-cı yarımbəndi, 1.9.6.1-ci abzası, 1.10-cu bəndi, 1.10.1-ci yarımbəndi, 1.10.1.1-ci abzası, 1.10.3-cü yarımbəndi, 1.10.3.1-ci abzası, 1.10.5-ci yarımbəndi, 1.10.5.1-ci abzası, 1.10.6-cı yarımbəndi, 1.11-ci bəndi, 1.11.1-ci, 1.11.2-ci, 1.11.3-cü yarımbəndləri, 1.11.3.1-ci, 1.11.3.2-ci və 1.11.3.3-cü abzasları aşağıdakı redaksiyada verilsin:

| | | | | |
|---|---|---|---|---|
| **1.1.** | **Ümumi dövlət xidmətləri** | **81 106 253,0** | **59 185 380,0** | **21 920 873,0** |
| **1.1.1.** | **Qanunvericilik və icra hakimiyyəti, yerli özünüidarəetmə orqanlarının fəaliyyəti** | **76 344 024,0** | **54 574 372,0** | **21 769 652,0** |
| 1.1.1.2. | Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti | 2 990 442,0 | 2 990 442,0 | |
| 1.1.1.3. | Naxçıvan Muxtar Respublikasının Maliyyə Nazirliyi | 4 286 907,0 | 4 286 907,0 | |
| 1.1.1.7. | Naxçıvan Muxtar Respublikasının Gənclər və İdman Nazirliyi | 892 267,0 | 892 267,0 | |
| 1.1.1.9. | Naxçıvan Muxtar Respublikasının Təhsil Nazirliyi | 3 090 740,0 | 3 090 740,0 | |
| 1.1.1.10. | Naxçıvan Muxtar Respublikasının Mədəniyyət Nazirliyi | 1 434 358,0 | 1 434 358,0 | |
| 1.1.1.13. | Naxçıvan Muxtar Respublikasının Dövlət Statistika Komitəsi | 2 715 405,0 | 2 715 405,0 | |
| 1.1.1.15. | Naxçıvan Muxtar Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi | 840 159,0 | 840 159,0 | |
| 1.1.1.16. | Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti | 5 847 724,0 | 5 847 724,0 | |
| 1.1.1.20. | Naxçıvan Muxtar Respublikasının Turizm Departamenti | 541 317,0 | 541 317,0 | |
| 1.1.1.21. | Naxçıvan Muxtar Respublikasının Hərracların Təşkili üzrə Auksion Mərkəzi | 111 572,0 | 111 572,0 | |
| 1.1.1.22. | Naxçıvan Muxtar Respublikasının Bakı şəhərində Daimi Nümayəndəliyi | 883 008,0 | 883 008,0 | |
| 1.1.1.23. | Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyinin Dövlət Maliyyə Nəzarəti İdarəsi | 482 138,0 | 482 138,0 | |
| 1.1.1.25. | Şəhər və rayon icra hakimiyyəti orqanlarının saxlanılması | 21 769 652,0 | | 21 769 652,0 |
| 1.1.1.27. | Naxçıvan Muxtar Respublikasının Qida Təhlükəsizliyi Agentliyi | 1 185 624,0 | 1 185 624,0 | |
| 1.1.1.28. | Qanunvericilik və icra hakimiyyəti orqanları üzrə büdcədən maliyyələşən təşkilatların büdcədənkənar xərcləri | 2 355 200,0 | 2 355 200 ,0 | |
| **1.1.2.** | **Elm** | **3 680 706,0** | **3 529 485,0** | **151 221,0** |
| 1.1.2.1. | Naxçıvan Muxtar Respublikasının Ədliyyə Nazirliyi | 1 659 311,0 | 1 659 311,0 | |
| 1.1.2.4. | Naxçıvan Muxtar Respublikasının Dövlət Arxiv İdarəsi | 1 136 477,0 | 985 256,0 | 151 221,0 |
| **1.2.** | **Məhkəmə hakimiyyəti, hüquq-mühafizə və prokurorluq** | **90 027 995,0** | **90 027 995,0** | |
| **1.2.1.** | **Məhkəmə hakimiyyəti** | **10 527 875,0** | **10 527 875,0** | |
| 1.2.1.3. | Naxçıvan Muxtar Respublikasının Hərbi Məhkəməsi | 893 158,0 | 893 158,0 | |
| 1.2.1.4. | Naxçıvan Muxtar Respublikasının İnzibati Məhkəməsi | 753 487,0 | 753 487,0 | |
| 1.2.1.5. | Naxçıvan Muxtar Respublikasının Kommersiya Məhkəməsi | 590 337,0 | 590 337,0 | |
| 1.2.1.6. | Naxçıvan Muxtar Respublikasının Ədliyyə Nazirliyi (maliyyə təminatı, Naxçıvan Muxtar Respublikasının Ədliyyə Nazirliyi tərəfindən həyata keçirilən şəhər və rayon hkməələri) | 2 800 917,0 | 2 800 917,0 | |
| **1.2.2.** | **Hüquq-mühafizə** | **72 370 518,0** | **72 370 518,0** | |
| 1.2.2.5. | Hüquq-mühafizə orqanları üzrə büdcədən maliyyələşən təşkilatların büdcədənkənar xərcləri | 1 050 000,0 | 1 050 000,0 | |
| **1.2.3.** | **Prokurorluq** | **6 722 990,0** | **6 722 990,0** | |
| **1.2.4.** | **Hüquqi yardım** | **156 612,0** | **156 612,0** | |
| 1.2.4.2. | Naxçıvan Muxtar Respublikasının Maliyyə Nazirliyi (məhkəmə qərarlarının icrası, məhkəmə prosesləri ilə bağlı göstərilən hüquqi yardım və xidmətlər) | 6 012,0 | 6 012,0 | |
| **1.3.** | **Təhsil** | **160 076 586,0** | **160 076 586,0** | |
| **1.3.2.** | **Ümumi təhsil** | **115 619 159,0** | **115 619 159,0** | |
| 1.3.2.2. | Tam orta təhsil üzrə büdcədən maliyyələşən təşkilatların büdcədənkənar xərcləri | 36 000,0 | 36 000,0 | |
| **1.3.3.** | **Peşə təhsili** | **1 892 192,0** | **1 892 192,0** | |
| 1.3.3.2. | Peşə təhsili üzrə büdcədən maliyyələşən təşkilatların büdcədənkənar xərcləri | 15 100,0 | 15 100,0 | |
| **1.3.4.** | **Orta ixtisas təhsili** | **3 417 270,0** | **3 417 270,0** | |
| 1.3.4.2. | Orta ixtisas təhsili üzrə büdcədən maliyyələşən təşkilatların büdcədənkənar xərcləri | 100 000,0 | 100 000,0 | |
| **1.4.** | **Səhiyyə** | **12 534 897,0** | **12 534 897,0** | |
| **1.4.1.** | **Xəstəxanalar** | **6 125 483,0** | **6 125 483,0** | |
| 1.4.1.1. | Naxçıvan Muxtar Respublikasının Səhiyyə Nazirliyi | 6 125 483,0 | 6 125 483,0 | |
| **1.4.2.** | **Səhiyyə sahəsində proqramlar və digər xidmətlər** | **6 409 414,0** | **6 409 414,0** | |
| 1.4.2.1. | Naxçıvan Muxtar Respublikasının Səhiyyə Nazirliyi | 6 409 414,0 | 6 409 414,0 | |
| **1.5.** | **Sosial müdafiə və sosial təminat** | **9 699 431,0** | **9 699 431,0** | |
| **1.5.1.** | **Sosial müdafiə** | **840 071,0** | **840 071,0** | |
| 1.5.1.1. | Naxçıvan Muxtar Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | 840 071,0 | 840 071,0 | |
| **1.5.2.** | **Sosial müdafiə və sosial təminat sahələri üzrə digər müəssisə və tədbirlər** | **8 859 360,0** | **8 859 360,0** | |
| 1.5.2.3. | Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində "Sosial Xidmətlər Agentliyi" publik hüquqi şəxs | 4 175 169,0 | 4 175 169,0 | |
| **1.6.** | **Mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi, gənclər siyasəti və bu qəbildən olan digər fəaliyyət** | **26 242 093,0** | **26 242 093,0** | |
| **1.6.1.** | **Mədəniyyət və incəsənət sahəsində fəaliyyət** | **18 120 187,0** | **18 120 187,0** | |
| 1.6.1.1. | Naxçıvan Muxtar Respublikasının Mədəniyyət Nazirliyi | 18 071 433,0 | 18 071 433,0 | |
| **1.6.2.** | **Televiziya, radio və nəşriyyat** | **5 617 482,0** | **5 617 482,0** | |
| 1.6.2.2. | Nəşriyyat | 549 501,0 | 549 501,0 | |
| **1.6.3.** | **Bədən tərbiyəsi və gənclər siyasəti** | **627 535,0** | **627 535,0** | |
| 1.6.3.1. | Naxçıvan Muxtar Respublikasının Gənclər və İdman Nazirliyi | 627 535,0 | 627 535,0 | |
| 1.6.3.1.1. | Bədən tərbiyəsi və idmanın təşkili | 500 078,0 | 500 078,0 | |
| **1.6.5.** | **Mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi, gənclər siyasəti və bu qəbildən olan digər müəssisə və tədbirlər** | **1 473 912,0** | **1 473 912,0** | |
| 1.6.5.2. | "Naxçıvan Muxtar Respublikasının Gənclər Fondu" publik hüquqi şəxs | 102 000,0 | 102 000,0 | |

| | | | | |
|---|---|---|---|---|
| **1.7.** | **Mənzil və kommunal təsərrüfatı** | **16 308 880,0** | | **16 308 880,0** |
| 1.7.1. | Mənzil təsərrüfatı | 915 211,0 | | 915 211,0 |
| 1.7.2. | Kommunal təsərrüfatı | 11 832 703,0 | | 11 832 703,0 |
| **1.8.** | **Kənd təsərrüfatı** | **43 475 195 ,0** | **43 475 195 ,0** | |
| **1.8.1.** | **Kənd təsərrüfatı tədbirləri** | **10 440 237,0** | **10 440 237,0** | |
| 1.8.1.1. | Naxçıvan Muxtar Respublikasında ərzaq təhlükəsizliyinin təmin edilməsi ilə bağlı tədbirlər | 8 300 000,0 | 8 300 000,0 | |
| 1.8.1.2. | Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin tabeliyində “Naxçıvan Aqrar Xidmətlər Mərkəzi” publik hüquqi şəxs | 1 250 753,0 | 1 250 753,0 | |
| 1.8.1.3. | Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin tabeliyində Naxçıvan Kənd Təsərrüfatı Laboratoriyaları Mərkəzi | 889 484,0 | 889 484,0 | |
| **1.8.2.** | **Baytarlıq** | **2 316 558,0** | **2 316 558,0** | |
| 1.8.2.1. | Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin tabeliyində “Naxçıvan Aqrar Xidmətlər Mərkəzi” publik hüquqi şəxs | 2 129 560,0 | 2 129 560,0 | |
| 1.8.2.2. | Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin tabeliyində Naxçıvan Kənd Təsərrüfatı Laboratoriyaları Mərkəzi | 186 998,0 | 186 998,0 | |
| **1.8.3.** | **Meliorasiya** | **30 718 400,0** | **30 718 400,0** | |
| 1.8.3.1. | Naxçıvan Muxtar Respublikası Dövlət Su Ehtiyatları Agentliyinin tabeliyində “Su Meliorasiya Xidməti” publik hüquqi şəxs | 30 715 000,0 | 30 715 000,0 | |
| 1.8.3.2. | “Meliorasiya” köməkçi bölməsi üzrə büdcədən maliyyələşən təşkilatların büdcədənkənar xərcləri | 3 400,0 | 3 400,0 | |
| **1.9.** | **Ətraf mühitin mühafizəsi** | **14 585 463 ,0** | **4 323 300,0** | **10 262 163,0** |
| **1.9.1.** | **Bioloji zənginliyin qorunması** | **868 800,0** | **868 800,0** | |
| 1.9.1.1. | Naxçıvan Muxtar Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi | 868 800,0 | 868 800,0 | |
| **1.9.3.** | **Hidrometeorologiya tədbirləri** | **1 058 500,0** | **1 058 500,0** | |
| 1.9.3.1. | Naxçıvan Muxtar Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi | 958 500,0 | 958 500,0 | |
| 1.9.3.2. | Ətraf mühitin mühafizəsi bölməsi üzrə büdcədən maliyyələşən təşkilatların büdcədənkənar xərcləri | 100 000,0 | 100 000,0 | |
| **1.9.4.** | **Meşə təsərrüfatı** | **1 072 400,0** | **1 072 400,0** | |
| 1.9.4.1. | Naxçıvan Muxtar Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi | 1 072 400,0 | 1 072 400,0 | |
| **1.9.5.** | **Ərazilərin təmizlənməsi, çirkab suların yığılması və təmizlənməsi** | **10 262 163,0** | | **10 262 163,0** |
| 1.9.5.1. | Ətraf mühitin mühafizəsi sahəsi üzrə yaşayış məntəqələrinə aid olan kommunal təyinatlı infrastrukturların bərpası, yenidən qurulması və abadlaşdırılması | 10 262 163,0 | | 10 262 163,0 |
| **1.9.6.** | **Ətraf mühitin mühafizəsi sahəsinə aid edilən digər xidmətlər** | **503 600,0** | **503 600,0** | |
| 1.9.6.1. | Naxçıvan Muxtar Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi | 503 600,0 | 503 600,0 | |
| **1.10.** | **İqtisadi fəaliyyət** | **47 936 223,0** | **47 936 223,0** | |
| **1.10.1.** | **Nəqliyyat və rabitə** | **14 115 763,0** | **14 115 763,0** | |
| 1.10.1.1. | Avtomobil yollarının əsaslı və cari təmiri xərcləri | 13 600 000,0 | 13 600 000,0 | |
| **1.10.3.** | **Tikinti və şəhərsalma** | **25 500 000,0** | **25 500 000,0** | |
| 1.10.3.1. | Dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) | 25 500 000,0 | 25 500 000,0 | |
| **1.10.5.** | **Yanacaq və enerji kompleksi** | **3 207 010,0** | **3 207 010,0** | |
| 1.10.5.1. | Qeyri-dövlət müəssisələrinə subsidiyalar | 3 207 010,0 | 3 207 010,0 | |
| **1.10.6.** | **İqtisadi fəaliyyət ilə bağlı digər xidmətlər** | **3 403 627,0** | **3 403 627,0** | |
| **1.11.** | **Əsas bölmələrə aid edilməyən xidmətlər** | **37 271 984,0** | **36 621 000 ,0** | **650 984,0** |
| **1.11.1.** | **Naxçıvan Muxtar Respublikasının Ehtiyat Fondu** | **9 500 000,0** | **9 500 000,0** | |
| **1.11.2.** | **Məqsədli büdcə fondları** | **25 891 000,0** | **25 891 000,0** | |
| **1.11.3.** | **Əsas bölmələrə aid edilməyən tədbirlər üzrə digər fəaliyyət** | **1 880 984,0** | **1 230 000,0** | **650 984,0** |
| 1.11.3.1. | Naxçıvan Muxtar Respublikasının Fövqəladə Hallar Nazirliyi (fövqəladə halların nəticələrinin aradan qaldırılması) | 1 000 000,0 | 1 000 000,0 | |
| 1.11.3.2. | Ehtiyata və ya istefaya buraxılmış hərbçilərə mənzil kirayəsi ilə bağlı xərclər | 650 984,0 | | 650 984,0 |
| 1.11.3.3. | Ünvanlı dövlət sosial yardımı alan aztəminatlı ailələrin əmlakının, dövlətə məxsus əmlakın və dövlət büdcəsindən maliyyələşdirilən təşkilatlara məxsus nəqliyyat vasitələrinin icbari sığortası | 230 000,0 | 230 000,0 | |

1.2. 1-ci hissədəki cədvələ aşağıdakı məzmunda 1.1.1.29-cu, 1.1.1.30-cu, 1.1.2.5-ci abzaslar, 1.1.3-cü yarımbənd, 1.1.3.1-ci, 1.2.3.2-ci abzaslar, 1.2.5-ci yarımbənd, 1.2.5.1-ci, 1.10.6.3-cü, 1.11.2.1-ci və 1.11.2.2-ci abzaslar əlavə edilsin:

| | | | | |
|---|---|---|---|---|
| 1.1.1.29. | Naxçıvan Muxtar Respublikası Dövlət Su Ehtiyatları Agentliyi | 274 156,0 | 274 156,0 | |
| 1.1.1.30. | Naxçıvan Muxtar Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında Ekoloji Ekspertiza, Ətraf Mühitə və Təbii Ehtiyatlardan İstifadəyə Nəzarət Xidməti | 369 560,0 | 369 560,0 | |
| 1.1.2.5. | Elm sahəsi üzrə büdcədən maliyyələşən təşkilatların büdcədənkənar xərcləri | 30 000,0 | 30 000,0 | |
| **1.1.3.** | **Seçkilərin keçirilməsi və statistika tədbirləri** | **1 081 523,0** | **1 081 523,0** | |
| 1.1.3.1. | Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə seçkilərin keçirilməsi | 1 081 523,0 | 1 081 523,0 | |
| 1.2.3.2. | Prokurorluq orqanları üzrə büdcədən maliyyələşən təşkilatların büdcədənkənar xərcləri | 2 500,0 | 2 500,0 | |
| **1.2.5.** | **Məhkəmə qərarlarının icrası** | **250 000,0** | **250 000,0** | |
| 1.2.5.1. | Naxçıvan Muxtar Respublikasının Maliyyə Nazirliyi | 250 000,0 | 250 000,0 | |
| 1.10.6.3. | Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin tabeliyində “Hərracların Təşkili Mərkəzi” publik hüquqi şəxs | 153 627,0 | 153 627,0 | |
| 1.11.2.1. | “Avtomobil Yolları” Məqsədli Büdcə Fondu | 25 191 000,0 | 25 191 000,0 | |
| 1.11.2.2. | Naxçıvan Muxtar Respublikası Ətraf mühitin mühafizəsi və təbii ehtiyatlardan istifadə üzrə dövlət fondu | 700 000,0 | 700 000,0 | |

1.3. 1-ci hissədəki cədvəlin 1.4.1.2-ci, 1.11.3.1.1-ci, 1.11.3.2.1-ci və 1.11.3.4-cü abzasları ləğv edilsin;

1.4. 3-cü hissə üzrə:

1.4.1. 3.3-cü bənddə “1.1.1.28-ci,” sözlərindən sonra “1.1.2.5-ci,” sözləri, “1.2.2.5-ci,” sözlərindən sonra “1.2.3.2-ci,” sözləri əlavə edilsin və həmin bənddən “1.4.1.2-ci,” sözləri çıxarılsın;

1.4.2. aşağıdakı məzmunda 3.6-cı bənd əlavə edilsin:

“3.6. bu Fərmanın 1.11.2.2-ci yarımbəndində nəzərdə tutulan vəsaitin bölgüsünü və həmin bölgüdə dəyişiklikləri həyata keçirsin.”;

1.5. 6-cı hissədə “1.11.3.3-cü” sözləri “1.11.3.1-ci” sözləri ilə əvəz edilsin;

1.6. 7-ci hissədə “Naxçıvan Muxtar Respublikasının Qida Təhlükəsizliyi Agentliyi” sözlərindən sonra “, Naxçıvan Muxtar Respublikası Dövlət Su Ehtiyatları Agentliyi və Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti” sözləri, “1.8.2.1-ci,” sözlərindən sonra “1.8.3.1-ci,” sözləri, “1.10.2.1-ci” sözlərindən sonra “1.10.6.3-cü” sözləri əlavə edilsin.

2. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti “Naxçıvan Muxtar Respublikasının 2024-cü il büdcəsi haqqında” Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Naxçıvan Muxtar Respublikasının 2024-cü il 16 avqust tarixli 37-VI QN nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisi sədrinin müavini**
**Anar İBRAHİMOV**

*Naxçıvan şəhəri, 16 avqust 2024-cü il*

## “İşsizlikdən sığorta fondunun 2024-cü il büdcəsi haqqında” Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Naxçıvan Muxtar Respublikasının QANUNU

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 25-ci maddəsinin I hissəsinin 2-ci bəndini rəhbər tutaraq Naxçıvan Muxtar Respublikasının Ali Məclisi **qərara alır:**

“İşsizlikdən sığorta fondunun 2024-cü il büdcəsi haqqında” Naxçıvan Muxtar Respublikasının Qanununa aşağıdakı dəyişikliklər edilsin:

1. 2-ci maddə üzrə:

1.1. 2.1-ci maddədə “3 610 000,0” rəqəmləri “3 991 681,0” rəqəmləri ilə əvəz edilsin;

1.2. 2.1.1-ci maddədə “1 380 000,0” rəqəmləri “1 525 905,0” rəqəmləri ilə əvəz edilsin;

1.3. 2.1.2-ci maddədə “1 380 000,0” rəqəmləri “1 525 905,0” rəqəmləri ilə əvəz edilsin;

1.4. 2.1.3-cü maddədə “850 000,0” rəqəmləri “939 871,0” rəqəmləri ilə əvəz edilsin.

2. 3-cü maddə üzrə:

2.1. 3.1-ci maddədə “300 000,0” rəqəmləri “470 000,0” rəqəmləri ilə əvəz edilsin;

2.2. 3.2-ci maddədə “727 000,0” rəqəmləri “627 000,0” rəqəmləri ilə əvəz edilsin;

2.3. 3.3-cü maddədə “100 000,0” rəqəmləri “70 000,0” rəqəmləri ilə əvəz edilsin;

2.4. 3.4-cü maddədə “400 000,0” rəqəmləri “900 000,0” rəqəmləri ilə əvəz edilsin;

2.5. 3.5-ci maddədə “683 000,0” rəqəmləri “524681,0” rəqəmləri ilə əvəz edilsin.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisi sədrinin müavini** **Anar İBRAHİMOV**

*Naxçıvan şəhəri, 16 avqust 2024-cü il*

## Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasının mətbuat xidmətinin məlumatı

Məlum olduğu kimi, 1 sentyabr 2024-cü il tarixdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər keçiriləcəkdir. Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyası seçkinin təşkili və keçirilməsi ilə bağlı qanunvericiliyin tələblərinə uyğun olaraq bütün zəruri tədbirləri görür. Lakin bəzi informasiya saytları qanunvericiliyin tələblərinə əməl etmədən həqiqətə uyğun olmayan məlumatlar yayır, Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilərdə dairələr üzrə qeydə alınmış namizədlərin siyahısının Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasının saytında yerləşdirilməməsini “seçki prosesi ilə bağlı məlumatların ictimaiyyətdən gizlədilməsi” kimi dəyərləndirir və qanunun tələbinin pozulması kimi ictimaiyyətə çatdırırlar.

Bildiririk ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilərin təşkili və keçirilməsi “Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər haqqında” Naxçıvan Muxtar Respublikası Qanunu ilə tənzimlənir. Həmin qanunun 56.10-cu maddəsinə əsasən qeydə alınmış namizədlərin dairələr üzrə siyahısı səsvermə gününə azı 14 gün qalmış (avqustun 18-dək) Mərkəzi Seçki Komissiyası tərəfindən dövri nəşrlərdə dərc edilir. Bu barədə məlumat, eyni zamanda Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasının “Təqvim planı”nda da qeyd edilmiş, son tarix dəqiq olaraq göstərilmişdir. Qeyd edilən “Təqvim planı” “Şərq qapısı” qəzetində dərc edilmiş, eyni zamanda Mərkəzi Seçki Komissiyasının saytında da yerləşdirilmişdir.Yəni qanunvericiliyə uyğun olaraq namizədlərin siyahısı Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasının saytında yerləşdiriləcək və dövri nəşrlərdə dərc ediləcəkdir.

Media nümayəndələrinə daha diqqətli olmağı tövsiyə edirik.

## 28 saylı Naxçıvan Şəhər Dairə Seçki Komissiyası Qərar

**№ 12**

**Naxçıvan şəhər** **14 avqust 2024-cü il**

28 saylı Naxçıvan Şəhər Dairə Seçki Komissiyası “Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər haqqında” Naxçıvan Muxtar Respublikası Qanununun 20.4, 20.13, 29.1.1, 31.2, 63 və 99.1-ci maddələrini rəhbər tutaraq

**QƏRARA ALIR:**

1. 1 sentyabr 2024-cü il tarixdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinə keçiriləcək seçkilərdə 28 saylı Naxçıvan şəhər seçki dairəsindən namizədliyi qeydə alınan Azərbaycan Respublikası vətəndaşı İsmayılxanlı Rövşən Əli oğlu “Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər haqqında” Naxçıvan Muxtar Respublikası Qanununun 63-cü maddəsinin tələblərini pozaraq seçkiqabağı təşviqat aparılması müddətinin tələblərinə əməl etmədiyindən həmin şəxsə “Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər haqqında” Naxçıvan Muxtar Respublikası Qanununun 99.1-ci maddəsini rəhbər tutaraq media vasitəsilə xəbərdarlıq edilsin.

2. Bu qərar media subyektlərində dərc olunsun.

**Sədr: Qasımova Tahirə Yusif qızı**
**Katib: Novruzov Əli Teymur oğlu**

## 8 saylı Düdəngə Dairə Seçki Komissiyası Qərar

**№ 16**

**Düdəngə kəndi** **14 avqust 2024-cü il**

8 saylı Düdəngə Dairə Seçki Komissiyası “Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər haqqında” Naxçıvan Muxtar Respublikası Qanununun 20.4, 20.13, 29.1.1, 31.2, 63 və 99.1-ci maddələrini rəhbər tutaraq

**QƏRARA ALIR:**

1. 1 sentyabr 2024-cü il tarixdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinə keçiriləcək seçkilərdə 8 saylı Düdəngə seçki dairəsindən namizədliyi qeydə alınan Azərbaycan Respublikası vətəndaşları Mahmudov Rövşən Əzim oğlu, Mehdiyev Həkimeldostu Bayram oğlu və Nadirov Cavanşir Abbasqulu oğlu “Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər haqqında” Naxçıvan Muxtar Respublikası Qanununun 63-cü maddəsinin tələblərini pozaraq seçkiqabağı təşviqat aparılması müddətinin tələblərinə əməl etmədiklərindən həmin şəxslərə “Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər haqqında” Naxçıvan Muxtar Respublikası Qanununun 99.1-ci maddəsini rəhbər tutaraq media vasitəsilə xəbərdarlıq edilsin.

2. Bu qərar media subyektlərində dərc olunsun.

**Sədr: Abbasov Toğrul Teymur oğlu**
**Katib: Həsənov Hicran İmran oğlu**

# Prezident İlham ƏLİYEV:

*“Mən şadam ki, bizim idmançılarımız həm yarışlarda, eyni zamanda, həyatda nümunəvi davranış qaydaları göstərirlər. Yəni, siz gənclər üçün nümunəsiniz. Gənclər sizə baxıb sizin kimi olmaq istəyəcəklər və bu qələbənin vacib olan tərəflərindən biri məhz bundan ibarətdir.”*



# Prezident İlham ƏLİYEV: “Bu Oyunlar bir daha göstərdi ki, Azərbaycanda idmanın inkişafı ardıcıl surətdə gedir”

## *Müstəqilliyimizin 33 illiyinə dəyərli idman töhfəsi: 33-cü Yay Olimpiya Oyunları*

(əvvəli 1-ci səhifədə)

Beynəlxalq turnirin nəticələrini şərh edən Milli Olimpiya Komitəsinin vitse-prezidenti Çingiz Hüseynzadə də Paris-2024-də güləşçilərdən gözlənilənləri vermədiklərini vurğuladı: “Güləşçilərimiz bir qədər ümidləri doğrultmadılar. Tokio-2020-də gümüş medal qazanmışdıq. Buna uğursuzluq deməzdim. Bu problemi yığmadakı nəsildəyişmə prosesi ilə əlaqələndirirəm. Yaş məsələsi də buna imkan vermədi. Ümid edirəm ki, yeni gənclər yetişəcək. Artıq onlardan uğurlu nəticələr gözləməyə dəyər”. Komitə rəsmisinin bu fikirlərinə qüvvət kimi, elə “Paris-2024” Yay Olimpiya Oyunlarının “Stad de Frans” stadionunda təşkil edilən paradında bayrağımızı dalğalandıranların 25 yaşlı gənc idmançılar – olimpiadanın gümüş mükafatçısı, taekvondoçu Qaşım Maqomedov və bədii gimnastika üzrə yarışda 5-ci yeri tutan Azərbaycanın qrup hərəkətləri komandasının üzvü Zeynəb Hümmətovanın olması mübarizə meydanında gənclərə göstərilən böyük jestdən, önəmdən xəbər verir. Eyni zamanda bu amil ölkə Prezidentinin Azərbaycan idmanının gəncləşməsi yolunda qarşıya qoyduğu hədəflərə çatmaq üçün atılan addımların ayaq səsləridir: ***“Gənc idmançıların hazırlanması, əlbəttə ki, mütəşəkkil qaydada təmin edilməlidir. Son vaxtlar bu sahədə daha məqsədyönlü fəaliyyət də göz önündədir, xüsusilə seleksiya işləri. Bölgələrdə keçirilmiş çoxsaylı tədbirlər gəncləri, uşaqları, yeniyetmələri idman bölmələrinə cəlb etmək üçün daha böyük imkanlar yaradacaq”.***

Bütün idman növləri üzrə nəticələrə nəzər salsaq, ölkəmizin idman şərəfi Parisdə layiqincə qorundu deyə bilərik. 91 ölkənin idmançılarının fəxri kürsüyə çıxdığı olimpiadada Azərbaycan 2 qızıl, 2 gümüş və 3 bürünc medal qazanmaqla sıralamada Qazaxıstan, Polşa, Avstriya kimi iddialı komandaları arxada buraxıb 30-cu olmağı bacardı. Qadın basketbolçularımızın olimpiadada 7-ci yeri tutması, xüsusilə də turnirin əsas favoritləri Amerika və Çin komandalarına qalib gəlməsi diqqətçəkən idman uğurumuz kimi tarixə düşdü. Eyni zamanda bədii gimnastika üzrə qrup hərəkətləri komandamız Paris-2024-də beşinci yeri tutdu ki, bu da böyük nailiyyət sayıla bilər. Həmçinin atletikada Anna Skidanın nəticəsi də ötən olimpiadalardan sonra bu idman növü üzrə irəliləyişin olduğunu göstərir. Onu da vurğulamaq yerinə düşər ki, Annaya qədər atletikada heç bir idmançımız finala yüksəlməyi bacarmayıb. Olimpiadanın xalqımız üçün ən unudulmaz anlarını isə, heç şübhəsiz, Azərbaycan cüdo məktəbinin fəxrləri Hidayət Heydərov (-73 kq) və Zelim Kotsoyev (-100 kq) yaşatdı. Bəli, iyulun 29-u və avqustun 1-də “Paris-2024” XXXIII Yay Olimpiya Oyunlarında Azərbaycan cüdo məktəbinin iki pəhləvanı, sözün əsl mənasında, tatamidə rəqiblərinə dərs keçdilər. Sağlam rəqabət, sağlam mübarizə dərsi. ABŞ, Yaponiya kimi ölkələrin idmançılarına öz milli atributları, bayraqları ilə sevincini bölüşməsinə səs çıxarmayan, çirkin diplomatik oyunlar müəllifi kimi ad çıxaran Paris siyasi diktaturasının Azərbaycan idmançılarına qarşı nümayiş etdirdiyi ikili standartlara ən gözəl, ən sərt cavabı da elə Hidayətlə Zelim verdi. Bəli, dünya azərbaycanlılarını sevinc göz yaşlarına qərq edən bir-birini mükəmməl tamamlayan üç unudulmaz an yaşandı firənglərin gözləri önündə: fəxri kürsünün ən yüksək zirvəsində Qarabağımızın simvolu sayılan Xarıbülbülün əks olunduğu geyimdə məğrur dayanan Azərbaycan pəhləvanı, zirvəyə yüksələn üçrəngli bayrağımız və parislilləri ayağa qaldıran Dövlət Himnimiz.

Ölkəmizdə idmana, idmançılara həmişə qayğı ilə yanaşan Prezident cənab İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın Azərbaycanın idman şərəfini layiqincə qoruyan, qızıl medal qazanan idmançılara şəxsən zəng edərək təbriklərini, ürək sözlərini çatdırmaları, birinci xanımın hər uğurun ardından sosial mediada etdiyi paylaşımlar olimpiada iştirakçılarımıza böyük stimul və ruh yüksəkliyi bəxş etdi. Hər olimpiya oyunlarından sonra olduğu kimi, bu dəfə də ölkə başçısı uğur qazanan idmançıları və onların məşqçilərini orden və pul mükafatları ilə təltif etdi, onları qəbul edərək öz ürək sözlərini çatdırdı, yeni nailiyyətlərin qazanılması üçün yüksək motivasiya verdi, qarşıdan gələn yarışlara vaxtında hazırlığın vacibliyini vurğuladı...

Ümumilikdə, müstəqilliyin bərpasının 33 illiyini qeyd edən Azərbaycan Respublikası 33-cü Yay Olimpiya Oyunlarında da öz idmanından, idmançılarından söz etdirməyi çox gözəl bacardı. Beynəlxalq turnirdə ən əsas və yaddaqalan məqam isə idmançılarımızın bütün haqsızlıqlara rəğmən özünü ləyaqətlə aparmaları, əsl Azərbaycan idmançısına yaraşan hərəkətləri, humanist davranışları, jestləri ilə seçilmələri oldu. Avqustun 14-də Azərbaycan Respublikasının Prezidenti, Milli Olimpiya Komitəsinin Prezidenti cənab İlham Əliyev XXXIII Paris Yay Olimpiya Oyunlarında medal qazanmış Azərbaycan idmançılarını və onların məşqçilərini qəbul zamanı dediyi kimi: ***“Mən şadam ki, bizim idmançılarımız həm yarışlarda, eyni zamanda, həyatda nümunəvi davranış qaydaları göstərirlər. Yəni, siz gənclər üçün nümunəsiniz. Gənclər sizə baxıb sizin kimi olmaq istəyəcəklər və bu qələbənin vacib olan tərəflərindən biri məhz bundan ibarətdir”.***

**Nail ƏSGƏROV**











# 100 ilin qəhrəmanları

***"Şərq qapısı" qəzeti bu adla yeni layihəyə start verib. Belə ki, qəzetimizin nömrələrində şəhid analarının övladları haqqında xatirələri yer alacaq. 44 cümləyə sığışdırılacaq hər bir xatirənin şəhidlərimizə böyük sevgi və ehtiram kimi oxucularımız tərəfindən də maraqla qarşılanacağına əminliyimizi bildirir, şəhidlərimizin ruhu qarşısında baş əyir, belə igid oğullar böyütmüş analarımıza minnətdarlığımızı ifadə edirik. Bugünkü nömrəmizdə Naxçıvan şəhərindən olan şəhidimiz İslam Eyvazovun anası Aytən Eyvazovanın, Naxçıvan şəhərinin Qaraxanbəyli kəndindən olan şəhidimiz Pərviz Məmmədzadənin anası Pərvanə Cəfərovanın və Naxçıvan şəhərinin Qaraçuq kəndindən olan şəhidimiz Sahil Məmmədovun anası Sahilə Məmmədovanın övladları haqqında xatirələri yer alıb.***

## İslam Həsən oğlu Eyvazov

*(07.04.1999-09.11.2020)*

## Adı tarixə qızıl hərflərlə yazıldı





İslam evin dördüncü uşağı, sonbeşiyi idi. Bəlkə də, elə buna görə hamımızın sevimlisinə çevrilmişdi. Hər işimizə köməklik edirdi. Türkiyədə işləməyə getmişdi. Atasının ayağında ağrılar var idi. Ona görə də qayıdıb gəldi. Hərbçi olmaq istədiyini bildirdi. Mən özüm də hərbi hissədə işlədiyim üçün deyirdim ki, İslam, hərbi çox çətindir. Deyirdi ki, ana, bu qədər hərbçi necə işləyir, mən də elə. Hərbiyə daxil olduğu müddət müharibə dövrünə təsadüf edirdi. Bunu bilə-bilə özü seçdi bu yolu.

Kursa göndəriləndən bir az keçmiş gəldi və dedi ki, hərbidən çıxacağam. Bildirdim ki, hərbinin öz qanunları var, tabe olmalısan. Cavab verdi ki, mən kəşfiyyatçı olmaq istəyirəm, ora keçirmirlər. Bir gün İslamın yeməyə gəlmədiyini gördüm. Nigaran qalıb yoldaşlarından soruşdum. Dedilər ki, bəs İslamı kəşfiyyata seçiblər. Həmin an bilmədim sevinim, yoxsa necə. Bilirdim ki, kəşfiyyat çox çətindir. İki həftə sonra komandirləri dedi ki, İslamgil gələcək yuyunmağa. Oturub zalda gözləməyə başladım. Oğlum gələndə mən onu az qala tanımadım. İki həftə ərzində keçdiyi təlimlərdən tamamilə dəyişilmişdi. Dirsəkləri cızılmışdı. Dedim ki, oğul, sənə demişdim kəşfiyyat çətindir. Cavab verdi ki, ana, bu mənə ləzzət edir. Mən özüm seçmişəm bu yolu. Görüşüb sağollaşdıq, amma onun ətri hələ də burnumdadır. Oradakı yoldaşlarından xəbər aldım ki, bəs necə oldu İslam ora seçildi? Dedilər ki, İslam özü generala yaxınlaşıb xahiş edib. General da İslamın bu cəsarətinə görə onun bütün normativlərinə baxaraq razılıq verib. Hətta deyib ki, sən cəsarətlə generalın qarşısına çıxa bilirsən. Deməli, düşmənin də qarşısına çıxa bilərsən. Xocavəndin "Bayraq postu"na kimi döyüşlərdə olmuşdu. Müharibədə qabaqda getdiyini bildirmirdi. Şəklini istəyəndə isə atmırdı. Ancaq həmişə də yaxşı danışırdı. Üç gün zəng etmədi. Sonra zəng edib bacısıgillə danışmışdı. Deyib ki, heç bir narahatçılığı yoxdur. Sonra özüm də danışdım və budəfəki danışığından anladım ki, ağır döyüşlərdə, irəlidədir. Bir gün yenə zəng etdim. Dedim ki, sən qayıdan günə nəzir deyirəm. Amma arzum gözümdə qaldı.



## Pərviz Zahid oğlu Məmmədzadə

*(31.07.2001-06.11.2020)*

## Şəhid olmaqla əbədiyyətə qovuşan igidimiz





Pərviz bu işıqlı dünyanı, bizi tərk etməklə arzularımı ürəyimdə qoydu. Bu arzular həm də ailəmizin arzuları idi. Heç birinə nail olmadıq. Sonuncu dəfə oğlumla noyabr ayının 1-də danışmışdıq. Müharibə başlayan gündən döyüşlərdə olub. Ancaq bunu evə bildirmirdi. Yəqin ki, istəmirdi nigaran qalaq. Çox həssas idi. Uşaqlığı çox yaxşı keçmişdi şəhid balamın. 9 nömrəli Qaraçuq kənd tam orta məktəbində oxumuşdu. Yaxşı şagird kimi tanınmışdı. Öz arzusu idi hərbi liseyə qəbul olsun. Evdən razı deyildik deyə müəllimi ilə gizlin danışıb sənədlərini vermişdi. İmtahanlara da bizə demədən getmişdi. Bir gün məktəbin direktoru evə zəng etdi. Oğlumuzun məktəbə qəbul olmaq xəbərini verdi. O vaxt Pərvizin necə sevindiyini gözlərim önünə gətirdim. Həmişə cibində bayraq gəzdirərdi. Hərbi məktəbin ikinci kursundan getdi əsgərliyə. Pərviz şəhid olandan sonra getdim həmin məktəbə, akademiyaya. Orada dostları dedilər ki, ana, Pərvizin arzusu idi döyüşlərdə iştirak etsin. Arzusunun arxasınca da getdi. Rəşadət göstərdi. Dostu ilə birgə olub döyüşlərdə. Biri qazi kimi evinə qayıtdı, biri şəhidlik zirvəsinə ucaldı. O da deyir ki, Pərviz həmişə yanında bayraq gəzdirərdi. Bir neçə postun azad olunmasında iştirak edib. Xocavənd istiqamətində döyüşlərdə isə şəhid olub. Hər dəfə də zəng edəndə "Anacan, necəsən? Səni saraylarda yaşadacağam. Hər şey yaxşı olacaq", – deyə kef-hal tutardı. Ancaq arzuları ürəyində qaldı. Noyabr ayının 6-sı mən özümü yaxşı hiss etmirdim, sanki ürəyimə nə isə dammışdı. Sakitləşdirici iynələr vururdular. Amma ağlıma gəlmirdi ki, Pərviz döyüşlərdə ola. Ara-sıra bacım qızı ilə görüntülü danışırdı. Son günlər isə əlaqə saxlaya bilmirdik. Nigaran qalıb, komandiri ilə danışa bildik. O da Pərvizin yaralı olduğunu deyib, telefonu bağladı. Yenidən əlaqə saxladıq. Dedi ki, məndən heç nə soruşmayın. Çətin də olsa, deməliyəm ki, Pərvizgil yaralıdı. Həmin vaxt mən özümü daha da pis hiss etməyə başladım. Bu xəbərdən sonra heç kim məni ovuda bilmirdi. Soraqlaşıb öyrəndik ki, 8 gün mühasirədə qaldıqdan sonra şəhid olublar.

Allah şəhidlərimizə rəhmət eləsin!



## Sahil Rasim oğlu Məmmədov

*(07.06.1995-29.09.2020)*

## Vətənin qəhrəman oğlu





Çox ciddi xarakteri vardı Sahilin. Onun hər bir xatirəsi mənim üçün unudulmazdır. Şəhid anaları ilə söhbət edəndə də hər birinin xoş xatirələrindən danışarıq. Xatirimizdə ancaq gözəl izlər buraxıb onlar. Həqiqətən, hər biri mələk idi. Sanki evimizdə mələk böyütmüşdük. Nə isə, Sahillə sonuncu danışığımız 24 sentyabrda olub. O, Tovuz döyüşlərində iştirak etmiş, Polad Həşimovla eyni səngərdə olmuşdular. Sahil deyirdi ki, Polad Həşimov çox sadə general idi. Onun Murovdağdan videoları var. Murovun ən yüksək zirvəsinə qızı Şəmsin adını yazmışdı.

Naxçıvan şəhərindəki Heydər Əliyev adına tam orta məktəbdə oxumuşdu. İngilis dilində sərbəst danışırdı. Rəssam kimi gözəl əl qabiliyyəti də ona verilmişdi. Bununla yanaşı, gözəl də musiqiçi idi.

Əmisi hərbçidir. Sahildə hərbiyə həvəs, sevgi, bəlkə də, ondan yaranmışdı. Elə o sevgidən də hərbçi olmağın yolunu seçdi. Məktəbdə yaxşı oxuduğu üçün yüksək balla istədiyi ali məktəbə qəbul ola bilərdi. Lakin hərbçiliyə üstünlük verdi. Sanki ürəyinə dammışdı. 2014-cü ildə 2-ci kursda status paylaşmışdı ki, şəhidlik zirvəsi hər insana qismət olmur. Hətta bir ailəvi dostumuz var, ona demişdi ki, bizim ömrümüz qısadır. Biz şəhid olacağıq. Kostyumunun cibindən də yazdığı kağız parçası çıxmışdı. Orada yazılmışdı ki, bu kostyum-şalvar mənə necə yaraşırsa, şəhidlik də o cür yaraşacaq. Onlar torpaq sevgisi, işğalda olan torpaqların azad olunması əzmi ilə böyümüşdülər.

…Bir gün getdim Bakıya Sahilin yanına. İçəri daxil olmaq istəyəndə qapıda dayanan şəxs soruşdu ki, kim üçün gəlmisiniz? Dedim ki, Məmmədov Sahilin anasıyam. Naxçıvandan oğlumu görməyə gəlmişəm. Elə bu vaxt Sahil də içəriyə daxil oldu. Çox yaxın məsafədə olmağımıza baxmayaraq, qapıdakı şəxs dedi ki, Məmmədov qayıt! Nə görüşə bildik, nə də əl uzada bildik bir-birimizə. Elə o andaca fikirləşdim ki, mənim oğlum hərbiyə gedib, Vətənin oğludur. Sahil də elə intizama tabe olaraq dönüb getdi. Amma gözlərində bir həsrət gördüm o an. O baxışları unuda bilmirəm...



Qızı Şəmslə getmişdik atasının məzarını ziyarətə. Məzarının yanında atasının çəkməsinin bir tayına xarıbülbül əkmişik. Orada Şəms sual verdi ki, nənə, atamın ayaqqabısının bir tayı qalıb burada? Atam gedəndə ayaqqabısının tayını niyə aparmayıb? Yəqin, yadından çıxıb...

Sahilin də, digər şəhidlərimizin də ruhları şad olsun!

# Prezident cənab İlham Əliyev mediaya yüksək diqqət və qayğısını əsirgəmir

## Prezidentin Fərmanı Naxçıvan Teleradiosunun daha sürətli inkişafına stimul kimi dəyərləndirilib



Avqustun 15-də "Naxçıvan Muxtar Respublikası Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyətində Prezident İlham Əliyevin "Audiovizual yerüstü yayım həyata keçirən dövlət orqanlarının (qurumlarının) Siyahısı"nda dəyişiklik edilməsi haqqında Fərmanı ilə bağlı tədbir keçirilib.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyinin əməkdaşı Günay Nəzərova bildirib ki, Prezident İlham Əliyev avqustun 15-də "Audiovizual yerüstü yayım həyata keçirən dövlət orqanlarının (qurumlarının) Siyahısı"nda dəyişiklik edilməsi haqqında Fərman imzalayıb. Fərmana əsasən siyahıya "Naxçıvan Muxtar Respublikası Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyəti – "Naxçıvan TV" televiziya yayımçısı və "Naxçıvan Radiosu" radio yayımçısı əlavə edilib.

Günay Nəzərova vurğulayıb ki, dövlət başçımızın bu il media sahəsi ilə bağlı imzaladığı mühüm sənədlər Azərbaycan mediasına olan diqqət və qayğının əyani ifadəsidir. Bu gün imzalanan Fərman Naxçıvan Teleradiosunun kollektivinə daha uğurlu işlər görmək üçün stimul verəcək. Bu həm də böyük etimad olmaqla kollektivin məsuliyyətini daha da artırır, fəaliyyətin daha da təkmilləşdirilməsi üçün yeni imkanlar yaradır.

Günay Nəzərova kollektivə Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəflinin təbriklərini çatdırıb və fəaliyyətlərində yeni-yeni uğurlar arzulayıb.

"Naxçıvan Muxtar Respublikası Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyətinin sədri Sahil Tahirli 15 avqustu kollektiv üçün əlamətdar gün kimi dəyərləndirib. Bildirib ki, 100-ə yaxın yaşı olan Naxçıvan Teleradiosu ötən dövrdə böyük təşkilatlanma və uğurlu yol keçib. Bu gündən isə teleradio qarşısında yeni mərhələ başlayır.

Naxçıvan Teleradiosuna göstərilən yüksək qayğıya və böyük etimada görə, Prezident İlham Əliyevə



kollektiv adından minnətdarlıq edən Sahil Tahirli bildirib ki, qarşıda daha böyük hədəflər var: göstərilən etimada cavab olaraq yayım keyfiyyətini yüksəltmək və peyk yayımını təşkil etmək. Bu hədəflərə nail olmaq üçün kollektiv bundan sonra da səylə çalışacaq, etimadları doğruldacaq.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Mətbuat və ictimaiyyətlə əlaqələr sektorunun müdiri Rəmzi İbrahimov Naxçıvan Teleradiosunda gənc jurnalistlərin yetişməsi sahəsində görülən işləri yüksək qiymətləndirib. Qeyd edib ki, kollektiv sırasında yetişən gənclər muxtar respublikanın müxtəlif qurumlarında məsul vəzifələrdə fəaliyyətlərini uğurla davam etdirirlər. Dövlət başçımızın bu gün imzaladığı Fərman kollektivin əməyinə, xüsusən də Naxçıvan mediasına verilən yüksək və xüsusi qiymətdir. Rəmzi İbrahimov əminliklə ifadə edib ki, Naxçıvan Teleradiosu bundan sonra da üzərinə düşən missiyanı daha böyük məsuliyyətlə yerinə yetirəcək.

Tədbirdə Naxçıvan Televiziyasının baş redaktorları Röyal Məmiyev, Anar Tağıyev və Nicat Quliyev çıxış edib, göstərilən diqqətə görə dövlətimizə minnətdarlıqlarını bildiriblər.

## Naxçıvan Televiziyası peykdə yayımlanacaq

**Sahil Tahirli**
*"Naxçıvan Muxtar Respublikası Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyətinin sədri*

Prezident cənab İlham Əliyevin avqustun 15-də imzaladığı Fərmanla "Naxçıvan Muxtar Respublikası Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyəti – "Naxçıvan TV" televiziya yayımçısı kimi, "Naxçıvan Radiosu" isə radio yayımçısı kimi audiovizual yerüstü yayım həyata keçirən dövlət orqanlarının siyahısına daxil edilib.



Bununla bağlı "Şərq qapısı" qəzetinə açıqlama verən "Naxçıvan Muxtar Respublikası Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyətinin sədri Sahil Tahirli bildirib ki, Prezident cənab İlham Əliyevin audiovizual yerüstü yayım həyata keçirən dövlət orqanlarının – qurumlarının siyahısında dəyişiklik edilməsi haqqında bu gün imzaladığı Fərman dövlətimizin başçısı tərəfindən ölkəmizdə uğurla həyata keçirilən media islahatlarının davamıdır. Bu, 100 ilə yaxın yaşı olan Naxçıvan Teleradiosunun həyatında mütərəqqi hadisə, region mediasının inkişafına göstərilən yüksək diqqət və qayğının təzahürüdür.

"Bununla da yaxın aylarda NTV-nin peyk üzərindən bütün dünyaya yayımlanması üçün ilkin hüquqi əsas yaradıldı. Göstərilən yüksək diqqət və qayğıya görə dövlətimizin başçısına bütün kollektivimiz və tamaşaçılarımız adından dərin minnətdarlığımı bildirirəm", – deyən cəmiyyət sədri qeyd edib ki, 1930-cu ildə yaradılan Naxçıvan Radiosu, 1963-cü ildən fəaliyyətə başlayan Naxçıvan Televiziyası çox dəyərli ziyalılar, elm və incəsənət xadimləri yetişdirib. Bu maarif və mədəniyyət məbədinin inkişafında Ulu Öndər Heydər Əliyevin xüsusi rolu və böyük xidmətləri vardır.

Ötən əsrin 90-cı illərində həm Naxçıvanın, həm də Heydər Əliyevin haqq səsini dünyaya çatdıran əsas media qurumu Naxçıvan Televiziyası olub. Ulu Öndərimizin Naxçıvanda Ali Məclisin Sədri işlədiyi vaxtlarda çəkilən qiymətli kadrlar, videolentlər bu gün Naxçıvan Televiziyasının arxivində qorunub saxlanılır. O cümlədən Naxçıvan Muxtar Respublikasının müstəqillik illərində keçdiyi ağır, mübarizələrlə dolu yolun salnaməsi də məhz Naxçıvan Televiziyasının əməkdaşlarının iştirakı ilə tarix səhifələrinə yazılıb. Hətta Ulu Öndəri devirməyə çalışan xalq cəbhəsinin quldur dəstələri dövlət çevrilişinə cəhd edən zaman Naxçıvan Televiziyasına silahlı basqın edərək dağıtmışdılar.

Sahil Tahirli bildirib ki, NTV bu gün də maarifçiliyin, milli-mədəni dəyərlərin, tariximizin təbliğində fəal iştirak edir, 17 saat öz tamaşaçıları ilə görüşür. Dövlət başçısının uğurla reallaşdırdığı sosial-iqtisadi islahatlara, ölkəmizin və cəmiyyətimizin inkişafına, vətənpərvərlik hisslərinin yüksəldilməsinə adekvat proqram siyasəti həyata keçirir.

## Cənab Prezidentin Naxçıvan mediasına növbəti qayğısı

Kütləvi informasiya vasitələrinin hazırkı inkişafını şərtləndirən əsas amillərdən biri dövlətin bu sahəyə diqqəti, həmçinin media orqanlarına əlverişli şəraitin yaradılmasıdır. Bu gün Azərbaycanda mətbuatın inkişafına təkan verən, onun əsaslı keyfiyyət dəyişikliklərinin meydana gəlməsində müstəsna rol oynayan müvafiq qanun və qərarların qəbul olunması, fərmanların imzalanması medianın hüquqi əsaslarını gücləndirib.



**Ceyhun Məmmədov**
***serqqapisi.gov.az* saytının redaktoru**

Həyata keçirilən uğurlu media siyasəti nəticəsində Naxçıvan Muxtar Respublikasında da mətbuat özünün inkişaf, tərəqqi mərhələsini yaşayır; media nümayəndələrinin öz vəzifə borclarına məsuliyyətlə yanaşması bu sahədə obyektivliyin təmin olunmasını şərtləndirib. Son illərdə isə bu sahənin maddi-texniki bazasının gücləndirilməsi, jurnalist əməyinin qiymətləndirilməsi istiqamətində həyata keçirilən tədbirlərin miqyası muxtar diyarda daha da genişlənib.

Cari ilin əvvəlində Azərbaycan Prezidenti cənab İlham Əliyevin "Media haqqında" Qanunda dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası Qanununun təsdiqlənməsi xüsusi qeyd olunmalıdır. Bu qanun Naxçıvan Muxtar Respublikası Ali Məclisinin çap mediası subyektinin təsisçisi ola bilmək hüququnu rəsmiləşdirib. Bununla da "Şərq qapısı" qəzetinin hüquqi fəaliyyət göstərə bilməsi qanuniləşdirilib və Ali Məclis qəzetin rəsmi təsisçisi qismində təsdiqlənib. Adıçəkilən qanun kollektivin öz işinə məsuliyyət hissini daha da artırıb. Qəzet qədim diyarın bu gününün salnaməsi yaratmaq üçün yaradılan şəraitdən səmərəli istifadə etməyə səy göstərir. Keçilən yolun mətbu orqanda öz əksini tapması sabahın tədqiqatçıları üçün bir mənbə rolunu oynayacaqdır.

"Şərq qapısı"nın, əsasən, gənclərdən ibarət olan yaradıcı kollektivi göstərilən qayğıya cavab kimi muxtar respublikanın müxtəlif bölgələrində olur, həyata keçirilən tədbirlərin işıqlandırılmasına operativ münasibət göstərir. Bu sahədə peşə məsuliyyətinin artması həm də obyektivliyin təmin olunmasını şərtləndirib. "Şərq qapısı" kollektivinin sosial müdafiəsinin gücləndirilməsi ilə bağlı Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin son Fərmanı isə göstərilən qayğının davamlı olmasının ifadəsidir. Müvafiq Fərmanla qəzetin təsisçisinin səlahiyyətləri ilə bağlı müddəalar, həmçinin qəzetin maliyyələşməsi ilə əlaqədar məsələlər yenidən tənzimlənib, qəzetin əməkdaşlarının əməkhaqları artırılıb. Yaxın gələcəkdə isə ölkənin ən qocaman qəzetinin maddi-texniki bazasının yenidən qurulması üçün də işlərə başlanılacaq.

"Naxçıvan Muxtar Respublikası Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyətinin – "Naxçıvan TV" televiziya yayımçısı kimi, "Naxçıvan Radiosu"nun isə radio yayımçısı kimi audiovizual yerüstü yayım həyata keçirən dövlət orqanlarının siyahısına daxil edilməsi isə Naxçıvan mediasının inkişafına göstərilən diqqətin bariz nümunəsidir. Bütün bunlar obyektiv, qərəzsiz prinsiplər əsasında fəaliyyət göstərən media qurumlarının cəmiyyət arasında ictimai nüfuzunun artmasına zəmin yaradıb.

Həm operativlik, həm də milli maraqların müdafiə edilməsi sahəsində mətbuatın fəaliyyətini yüksək qiymətləndirən ölkə başçısı mətbuatın maddi-texniki, maliyyə bazasının gücləndirilməsi, bu sahədə təmsil olunan şəxslərin səmərəli fəaliyyəti üçün əlverişli şəraitin yaradılması, ən əsası isə milli mətbuatımızın inkişafını şərtləndirən amilləri hər zaman prioritet məsələ kimi dəyərləndirir.

## "Şərq qapısı" qəzetinin əməkdaşlarının əməkhaqları artırıldı

"Şərq qapısı" qəzeti muxtar respublikanın ictimai-siyasi, mədəni həyatında bir güzgü rolu oynayan mətbuat orqanı kimi dövrün salnaməsini yaratmaq baxımından mühüm vəzifələri yerinə yetirir. Yaşı bir əsri ötən qəzet daim dövlətimizin qayğısını öz üzərində hiss edir. Qəzetin Nizamnaməsinin "Media haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 19 aprel tarixli 1137-VIQD nömrəli Qanununa uyğunlaşdırılması məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin müavini Anar İbrahimovun "Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2017-ci il 3 may tarixli Fərmanı ilə təsdiq edilmiş "Şərq qapısı" qəzeti redaksiyasının Nizamnaməsi"ndə dəyişiklik edilməsi haqqında" 2024-cü il 10 iyul tarixdə imzaladığı Fərman da göstərilən qayğının ifadəsidir. Müvafiq Fərmanla qəzetin təsisçisinin səlahiyyətləri ilə bağlı müddəalar, həmçinin qəzetin maliyyələşməsi ilə əlaqədar məsələlər yenidən tənzimlənmişdir.

Yeni ştat cədvəlinə uyğun olaraq "Şərq qapısı" qəzetinin əməkdaşlarının əməkhaqları 2024-cü il avqust ayının 15-dən artırılıb. Yaxın gələcəkdə qəzetin maddi-texniki bazasının yenidən qurulması üçün də işlərə başlanılacaq.



1 sentyabr 2024-cü il Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə seçkilər günüdür

# Seçki marafonu – 2024

***Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər 45 seçki dairəsi üzrə keçiriləcəkdir.***

**Seçkiqabağı təşviqat** – vətəndaşların və siyasi partiyaların seçiciləri seçkilərdə iştiraka, bu və ya digər namizədlərin lehinə səs verməyə (səs verməməyə) çağıran və ya çağırmaq məqsədi daşıyan fəaliyyətidir.

**Seçkiqabağı təşviqat aparmaq hüququna aşağıdakılar malikdirlər:**

– Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə deputat seçkilərində iştirak etmək üçün qeydə alınmış namizədlər;

– Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə deputat seçkilərində iştirak etmək üçün namizədi qeydə alınmış siyasi partiyalar.

**Seçkiqabağı təşviqat aşağıdakı üsullarla aparıla bilər:**

– media vasitəsilə;

– kütləvi tədbirlərin (yığıncaqlar və vətəndaşlarla görüşlər, kütləvi müzakirələr, söhbətlər və sair) keçirilməsi yolu ilə;

– çap olunmuş, audivizual və digər təşviqat materiallarının buraxılması və yayılması yolu ilə;

– qanunla qadağan edilməyən digər üsullarla.

– Media vasitəsilə seçkiqabağı təşviqat açıq müzakirələr, dəyirmi masalar, mətbuat konfransları, müsahibələr, çıxışlar, siyasi reklamlar, televiziya və radio proqramları, videofilmlər formasında və qanunla qadağan edilməyən digər formalarda həyata keçirilir.

***Qeydə alınmış namizəd və siyasi partiya seçkiqabağı təşviqatın forma və üsullarını müstəqil müəyyənləşdirir.***

**Seçkiqabağı təşviqatın aparılması, seçkiqabağı hər hansı təşviqat materiallarının yayılması aşağıdakılara qadağan edilir:**

– xarici dövlətlərə və xarici hüquqi şəxslərə;

– xarici vətəndaşlara;

– vətəndaşlığı olmayan şəxslərə;

– 18 yaşına çatmamış vətəndaşlara;

– beynəlxalq təşkilatlara və beynəlxalq ictimai hərəkatlara;

– dövlət hakimiyyəti orqanlarına və bələdiyyə qurumlarına;

– dövlət, bələdiyyə təşkilatlarına və idarələrinə;

– hərbi hissələrə;

– xeyriyyə təşkilatlarına, dini birliklərə, idarələrə və təşkilatlara;

– aşağıdakı məlumatlardan hər hansı birini göstərməyən anonim ianə köçürənlərə (vətəndaş üçün – soyadını, adını, atasının adını, şəxsiyyət vəsiqəsinin və ya onu əvəz edən sənədinin seriyasını, nömrəsini, verilmə tarixini, yaşayış yerinin ünvanını, doğum tarixini, hüquqi şəxs üçün – vergiödəyicisinin eyniləşdirmə nömrəsini, adını, qeydiyyat tarixini, bank rekvizitlərini, nizamnamə kapitalında dövlət və ya bələdiyyə payının olmasını, olduğu halda miqdarını, nizamnamə kapitalında xarici kapitalın pay miqdarını göstərməyənlərə və ya qeyri-düzgün göstərənlərə).

– seçki komissiyalarına, seçki komissiyasının üzvlərinə və digər vəzifəli şəxslərinə.

– Seçkiqabağı təşviqat üçün müəyyən edilmiş qaydalara riayət edilməsinə nəzarəti Mərkəzi Seçki Komissiyası həyata keçirir.

*Seçkiqabağı təşviqat səsvermə gününə 12 gün qalmış başlayır və səsvermənin başlanmasına 24 saat qalmış dayandırılır*

***Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər üzrə seçkiqabağı təşviqat 2024-cü il avqust ayının 20-də 8[00]-da başlanır və avqust ayının 31-i saat 8[00]-da dayandırılır.***

***

***Səsvermə günü və ondan əvvəlki gün hər hansı seçkiqabağı təşviqat aparmaq QADAĞANDIR.***

***Seçki məntəqəsi otaqlarının daxilində və xaricində yerləşdirilmiş seçkiqabağı təşviqat materialları səsvermə günü yığışdırılır.***

***Səsvermə gününə 24 saat qalmış ictimai rəy sorğusu nəticələrinin, seçkilərin nəticələri barədə proqnozların mediada dərc edilməsinə yol verilmir.***

**Kütləvi tədbirlər yolu ilə seçkiqabağı təşviqatın aparılması şərtləri**

– Dövlət orqanları, bələdiyyə qurumları qeydə alınmış namizədə və siyasi partiyaya vətəndaşlarla görüşlər, açıq müzakirələr təşkil edilməsində və keçirilməsində kömək etməlidirlər.

– Qeydə alınmış namizədin və siyasi partiyanın səlahiyyətli nümayəndələrinin, onların vəkil edilmiş şəxslərinin seçicilərlə görüşlərinin keçirilməsi üçün yer ayrılması barədə verdikləri ərizələrə müvafiq icra hakimiyyəti orqanları tərəfindən qanunvericiliyə uyğun olaraq baxılır.

– Seçki komissiyalarının sifarişi ilə dövlət və ya bələdiyyə mülkiyyətində olan, seçkiqabağı tədbirlərin keçirilməsi üçün yararlı yer (bina, otaq) qeydə alınmış namizədlərin və siyasi partiyaların səlahiyyətli nümayəndələrinin, onların vəkil edilmiş şəxslərinin seçki komissiyası ilə razılaşdırdıqları vaxtda seçicilərlə görüşlər üçün istifadəyə mülkiyyətçilər tərəfindən pulsuz verilir. Seçki komissiyaları qeydə alınmış namizədlərə, siyasi partiyalara, siyasi partiyaların bloklarına seçkiqabağı kütləvi tədbirlər keçirmək üçün bərabər şərait yaradırlar.

– Qeydə alınmış namizədlər və siyasi partiyalar seçicilərlə görüşlər, yığıncaqlar, digər seçkiqabağı kütləvi tədbirlər keçirmək üçün mülkiyyət formasından asılı olmayaraq, vətəndaşlara və təşkilatlara məxsus bina və otaqları müqavilə əsasında icarəyə götürmək hüququna malikdirlər.

– Dövlətin müvafiq reyestrlərinə daxil edilmiş, mədəniyyət obyektləri sayılan bina və avadanlıq təşviqat məqsədləri üçün istifadə edilə bilməz.

***Hərbi hissələrin, hərbi təşkilatların və idarələrin ərazisində seçkiqabağı təşviqat aparılması qadağandır.***

– Qeydə alınmış namizədlər, siyasi partiya, onların səlahiyyətli nümayəndələri və vəkil edilmiş şəxsləri hərbi hissələrin yerləşdiyi ərazinin hüdudlarında hərbi qulluqda sayılan seçicilərlə görüşlərini hərbi hissə komandirinin dairə seçki komissiyası ilə birlikdə belə görüşün keçirilməsini təyin etdikləri günə azı 3 gün qalmış müvafiq seçki dairəsi üzrə qeydə alınmış bütün namizədlərin, namizədləri qeydə alınmış bütün siyasi partiyaların müttəfiq dəvət edilməsi və ya onlara xəbər verilməsi şərti ilə təşkil edə bilərlər. Bu görüşlərin keçirilməsində yuxarıda göstərilən şəxslərə, siyasi partiyalara və siyasi partiyaların bloklarına bərabər şərait və həmin görüşlərin müşahidə edilməsi üçün müşahidəçilərə imkan yaradılmalıdır.

– Seçkiqabağı kütləvi tədbirlərin keçirilməsində təhlükəsizliyi və ictimai asayişi qanunvericiliyə uyğun olaraq müvafiq icra hakimiyyəti orqanları təmin edirlər.

**Seçkiqabağı təşviqat materiallarının buraxılışı və yayılması şərtləri**

– Qeydə alınmış namizədlər və namizədi qeydə alınmış siyasi partiyalar qanunla müəyyənləşdirilmiş qaydada seçkiqabağı təşviqat materiallarını buraxmaq hüququna malikdirlər.

– Seçkilərin təyin edilməsi haqqında qərarın dərc edildiyi gündək təsisçiləri (həmtəsisçiləri) dövlət orqanları və ya bələdiyyə qurumları, təşkilatları və idarələri olan, reklam xidmətləri göstərən təşkilatlar müvafiq seçki dairələri üzrə qeydə alınmış namizədlərə və siyasi partiyalara seçkiqabağı təşviqat materiallarının yerləşdirilməsi üçün bərabər şərait yaratmalıdırlar.

– Çap olunan seçkiqabağı təşviqat materialları haqqında tam məlumatları və ya onların surətlərini qeydə alınmış namizəd və siyasi partiya seçki komissiyasına təqdim etməlidir. Göstərilən materiallarla birlikdə müvafiq seçki komissiyasına bu materialları sifariş edən və hazırlayan təşkilatların ünvanları barədə məlumat da təqdim edilməlidir.

– Seçkiqabağı təşviqat materiallarının "Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər haqqında" Naxçıvan Muxtar Respublikası Qanununun 74.3-cü maddəsinin tələblərini pozmaqla yayılması qadağandır.

– Müvafiq icra hakimiyyəti orqanları və bələdiyyə qurumları dairə seçki komissiyasının təklifi ilə səsvermə gününə azı 30 gün qalmış hər bir seçki məntəqəsinin ərazisində seçkiqabağı təşviqat materiallarının lövhələrdə yerləşdirilməsi üçün yer müəyyənləşdirilməlidir. Belə yerlər seçicilərin gəlməsi üçün əlverişli olmalı və elə müəyyənləşdirilməlidir ki, orada yerləşdirilən məlumatları oxumaq mümkün olsun. Qeydə alınmış namizədlər və siyasi partiyanın səlahiyyətli nümayəndələri seçkiqabağı təşviqat materiallarının yerləşdirilməsi üçün ayrılmış yerlərin siyahısını dairə seçki komissiyasından ala bilərlər.

– Seçkiqabağı təşviqat materiallarının otaqlardan başqa binalarda və digər obyektlərdə Azərbaycan Respublikası Mülki Məcəlləsinin tələblərinə zidd yerləşdirilməsi qadağandır.

– Seçkiqabağı təşviqat materialları dövlətin müvafiq reyestrinə daxil edilmiş tarix və ya mədəniyyət abidələri sayılan binalarda, qurğularda və otaqlarda, habelə seçki komissiyalarının otaqlarında, o cümlədən "Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər haqqında" Naxçıvan Muxtar Respublikası Qanununun 85.3-cü maddəsində nəzərdə tutulmuş məlumat lövhələrində səsvermə üçün ayrılmış otaqlarda və ya onların girişlərində yerləşdirilə bilməz.

– Saxta seçkiqabağı təşviqat materiallarının və ya "Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər haqqında" Naxçıvan Muxtar Respublikası Qanununun 74.3-cü, 74.4-cü, 74.6-cı, 74.7-ci maddələrinin tələblərinin pozulması ilə seçkiqabağı təşviqat materiallarının yayılması barədə məlumat alan seçki komissiyası müvafiq tədbirlər görməli, hüquq-mühafizə orqanlarına və digər orqanlara qanunazidd təşviqatın dayandırılması və qanunsuz yayılan seçkiqabağı təşviqat materiallarının götürülməsi barədə Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə və ya Cinayət Məcəlləsinə uyğun olaraq məhkəməyə müraciət etməlidir.

***Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasının mətbuat xidməti***

## Naxçıvan Muxtar Respublikasında 6 seçki dairəsi üzrə 1900-ə yaxın əməkdaş treninqlərə cəlb edilib



Avqustun 12-dən etibarən Milli Məclisə növbədənkənar seçkilərlə əlaqədar Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən 1 saylı Şərur-Sədərək, 2 saylı Şərur-Kəngərli, 3 saylı Babək-Şahbuz-Kəngərli, 4 saylı Naxçıvan şəhər, 5 saylı Babək-Naxçıvan-Culfa və 6 saylı Ordubad-Culfa seçki dairələrində məntəqə seçki komissiyalarının sədrləri, katibləri və üzvləri üçün treninqlərə start verilib. Təlimlərin məqsədi seçki komissiyaları üzvlərinin məlumatlılığının və peşəkarlıq səviyyəsinin artırılmasıdır.

"Şərq qapısı" AZƏRTAC-a istinadən xəbər verir ki, treninqlərdə Mərkəzi Seçki Komissiyası tərəfindən hazırlanan slaydların və əyani vəsaitlərin köməyi ilə iştirakçılara səsvermə günü məntəqə seçki komissiyaları üzvlərinin rol və vəzifələri, seçki prosesində müstəsna hallar, səslərin hesablanmasına hazırlıq, seçki bülletenlərinin təsnifatı, səslərin hesablanması və yekun protokolun doldurulması, səsvermə prosesinə dair praktiki tapşırıqlar və digər məsələlərlə bağlı ətraflı məlumatlar verilir.

1 saylı Şərur-Sədərək seçki dairəsinin sədri Niyaz Əsgərovun verdiyi məlumata görə, avqustun 16-dək keçirilən treninqlərdə dairə üzrə 50 məntəqədən 300 əməkdaş iştirak edib. Treninqlərin gedişini xarici müşahidəçilər də izləyirlər. 1 saylı ŞərurSədərək seçki dairəsi üzrə 47 min 791 seçici qeydə alınıb ki, onlardan 590-nı ilk dəfə səs verəcək. Ən yaşlı seçicilər Şərur rayonunun Yengicə kənd sakini, 1925-ci il təvəllüdlü Sura Musayeva və Alışar kəndindən olan Tərlan İbrahimovadır. Dairənin 12, 15, 17, 21 və 36 saylı məntəqələrində veb-kameraların quraşdırılması nəzərdə tutulub. Dairə üzrə növbədənkənar parlament seçkiləri ilə əlaqədar deputatlığa 6 namizəd qeydə alınıb.

3 saylı Babək-Şahbuz-Kəngərli seçki dairəsinin sədri Taməddin Hüseynov bildirib ki, dairə əməkdaşları Nazim Piriyev və Nicad Fətullayev tərəfindən 1 gün ərzində iki dəfə olmaqla, 5 gün keçiriləcək treninqlərdə 60 məntəqədən 360 əməkdaş iştirak edəcək. Dairə üzrə 46 min 174 seçici qeydə alınıb ki, onlardan 701-i ilk dəfə səs verəcək, 1, 2, 3, 20, 23, 37 və 40 saylı məntəqələrdə veb-kameraların quraşdırılması nəzərdə tutulub. Dairədə deputatlığa 8 namizəd qeydə alınıb.

Qeyd edək ki, Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən 1 saylı Şərur-Sədərək seçki dairəsi üzrə 300, 2 saylı Şərur-Kəngərli seçki dairəsindən 342, 3 saylı Babək-Şahbuz-Kəngərli seçki dairəsi üzrə 360, 4 saylı Naxçıvan şəhər seçki dairəsindən 252, 5 saylı Babək-Naxçıvan -Culfa seçki dairəsi üzrə 267, 6 saylı Ordubad-Culfa seçki dairəsindən 378 olmaqla, ümumilikdə, 1899 əməkdaş treninqlərdə iştirak edib.

## Vətəndaşların seçki hüququ sahəsində maarifləndirilməsi ilə bağlı tədbir olub



Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) və Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyası tərəfindən birgə təsdiq olunmuş Tədbirlər Planına uyğun olaraq seçki hüququnun konstitusion əsasları ilə bağlı avqustun 13-də Şərur Şəhər İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəlikdə tədbir keçirilib.

Müvəkkil aparatının şöbə müdiri Asiman Abbasov, 1 saylı Şərur-Sədərək Seçki Dairəsinin sədri Niyaz Əsgərov və Şərur Rayon İcra Hakimiyyətinin şöbə müdiri Kamal İsmayılov çıxış edərək vətəndaşların seçki hüququnun normativ-hüquqi bazasının təkmilləşdirilməsi, seçkilərin milli qanunvericiliyin inkişafı prinsiplərinə uyğun həyata keçirilməsi barədə tədbir iştirakçılarına məlumat veriblər.

Sonra "Vətəndaşların seçki hüququnun təmini" mövzusunda təqdimat verilib, ilk dəfə seçki hüququndan istifadə edən gənclərə "Mənim seçki hüququm" adlı bukletlər paylanılıb.

Sonda mövzu ətrafında fikir mübadiləsi aparılıb.



# Bura Naxçıvandır



Beşminillik şəhərsalma tarixinin ərməğanı, qütblərin və qitələrin qovuşduğu əsrarəngiz məkan, Azərbaycanın döyünən ürəyidir, göz bəbəyidir Naxçıvan. Min illər boyu düşmənlərimizin gözünə od, dostlarımıza sədaqət qapısı, ümid yeri olan əzəmətli məmləkətimiz Nuh əyyamından üzü bəri, insan övladının ilk nəfəsi bu torpağa toxunduğu andan etibarən sanki Ulu Tanrının rəhməti ilə yoğrulub. Hər bölgəsinin öz ruzisi, hər guşəsinin öz gözəlliyi olan belə bir diyarda yaşamaq, yaratmaq da fərqli talelər yükləyir həyatlara. Təsadüfi deyil ki, diyarımızın qoynunda böyümüş yüzlərlə söz-sənət adamlarımız öz yaradıcılıqlarında bu yurdun hər qarışını sözə, kəlməyə çevirmiş, Naxçıvan tarixinə, ədəbiyyatına, incəsənətinə ölməzlik qazandırmışlar. Naxçıvanskilər, Kəngərlilər kimi rəşadətli oğullar yetirən tayfalar elimizin, obamızın keşiyində durmuş, Əcəmi Əbubəkr oğlu Naxçıvani, Hinduşah Naxçıvani kimi sənət dünyasından bəhrələnən şəxsiyyətlər bu torpağın şəninə layiq olan abidələr ucaltmış, Möminə xatın əzəmətli, Yusif Küseyr oğlu ehtişamlı-məmarlıq abidələri yaratmışlar. Heç yorulmadan, usanmadan Vətənin bir quru nur parçasının hər qarışına naxışlar salaraq adlarını tarixə həkk etmişlər, “Biz gedirik, ancaq qalır ruzigar, biz ölürük, əsər qalır yadigar” ifadəsini daş divarlara həkk edərək əbədi həyatda özlərinə məskən salmışlar. İllər bir-birini əvəzlədikcə, zaman ötüb-keçdikcə Mirzə Cəlil kimi demokrat düşüncəli yazıçılar bu diyarda meydana çıxmış, Eynəli bəy Sultanov, Məmmədağa Şahtaxtılı və daha neçə-neçə böyük düşüncə və ideya sahibləri Naxçıvan mühitində həyatı dərk etmiş, öz qələmləri ilə xalqımızın şüuruna hopmuş cəhalətə, nadanlığa qarşı mübarizə aparmışlar, insanları elmə, təhsilə səsləmişlər…



Bura Naxçıvandır; saf gözəlliyi, nəcib hissləri, həqiqi sevgini, məhəbbəti Tanrı dərgahından yerə endirən, onu sözə, kəlməyə çevirən Hüseyn Cavidin Vətəni; Azərbaycan ədəbiyyatına, maarifçiliyinə Məhəmməd Tağı Sidqi kimi görkəmli pedaqoqlar bəxş edən, Bəhruz Kəngərli kimi rəssamlar yetirən, Məmməd Səid Ordubadi kimi böyük qələm sahiblərini yaradan və yaşadan dahilər yurdu. Bura Naxçıvandır; xan Arazın ətəklərindən asılan, taleyi tariximizin tozlu yollarından keçən, düşmənlərlə üz-üzə, göz-gözə dayansa da, mübarizədən çəkinməyən igid oğulların Vətəni; yüz illər boyu yağıların tapdağı altında çapılıb talanan, işğallara, ağır müharibələrə məruz qalan, lakin öz varlığını itirməyən, tariximizə adını qızıl hərflərlə yazdıran qəhrəman insanların diyarı. Bura Naxçıvandır; Əlincə qalasından Haçadağına, Sədərəyindən Ordubadına qədər uzanan geniş çöllərlə sanki bol ruzili süfrəni xatırladan barlı-bəhərli düzlərlə qonaqlarını qarşılayan, təmiz və abad küçələri, geniş park və xiyabanları ilə könülləri oxşayan, diyarımızın hər gün daha da müasirləşdiyini, abadlaşdığını dünyaya tanıdan istedadlı gənclər şəhəri…



*(ardı var)*

✍ **Məcid RƏŞADƏTOĞLU**







## Nehrəm qarpızı – adıyla və dadıyla

Qızmar yay günlərində muxtar respublikamızın rayon mərkəzlərinə və kənd yaşayış məntəqələrinə gedən yol kənarlarında müxtəlif meyvə-tərəvəz məhsulları, o cümlədən qarpız, yemiş düzülmüş köşkləri görürük. Kənd təsərrüfatı məhsullarının bolluğu hamımızı sevindirir, satışa çıxarılmış həmin məhsullar torpağa sevgi ilə yanaşan təsərrüfatçı adamların çəkdikləri zəhmətdən xəbər verir. Həmin məhsulların satışı da elə təşkil edilib ki, həm təsərrüfatçı qazansın, həm də alıcılar ağız dadı ilə məmnun qalsınlar. Onu da qeyd edək ki, muxtar respublikada Nehrəm qəsəbəsindən olan təsərrüfatçıların yetişdirdiyi qarpız və yemiş ad ilə deyilir.



Bu dəfə Naxçıvan-Ordubad magistralı ilə Culfa rayonundan yazı hazırlamağa gedərkən gördüyümüz mənzərə bizi ayaq saxlamağa vadar etdi. Öz məhsulunu burada satışa çıxaran bir neçə zəhmət adamı ilə görüşüb söhbət etmək qərarına gəldik. Onlardan biri Nehrəm qəsəbəsindən olan Amil Həmzəyev oldu. Təsərrüfatlarında illərdir ki, bu sahə ilə məşğul olan həmsöhbətimiz bu il də bol məhsul yetişdirdiyini bildirdi, çəkilən zəhmətin hədər getmədiyini dilə gətirdi, satışdan da razı qaldığı üçün yaradılan şəraitdən razılıq etdi. Bacardıqları qədər də alıcıların məmnun qalmağı üçün qiymətlərin münasib olduğunu vurğuladı. Digər məhsul istehsalçıları da Amil Həmzəyevin dediklərini təsdiq etdilər. Bizi də yetişdirdikləri məhsula qonaq edən zəhmət adamlarına “Torpağınız bərəkətli, ruziniz bol olsun”, – deyərək sağollaşıb yolumuza davam etdik.

✍ **Aidə İBRAHİMOVA**

## Elan

Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin tabeliyində “Hərracların Təşkili Mərkəzi” publik hüquqi şəxs tərəfindən 14 avqust 2024-cü il tarixdə keçirilməsi nəzərdə tutulan hərracın iştirakçısı olmadığından “İpoteka haqqında” Azərbaycan Respublikası Qanununun 43.1.2-ci bəndinə uyğun olaraq hərrac baş tutmamış hesab olunur.

### *İtmişdir*

Ordubad rayonu, Vənənd kənd sakini Əliyev Kərəm Hüseyn oğlunun adına olan $738^{A}$ nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Oğlanqala kəndində yaşamış Həsənova Səriyyə Cahangir qızının adına verilmiş JN-$624^{A}$ nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Babək rayonu, Kərimbəyli kənd sakini Dünyamalıyev Nurəddin Hüseyn oğlunun adına olan 226 nömrəli torpaq sahəsinin planı və ölçüsü itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Axaməd kəndində yaşamış Abbasov İsa Hüseyn oğlunun adına verilmiş JN-$181^{A}$ nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Əsədov Coşqun Vahid oğlunun adına olan 75-BE-495 nömrəli avtomobilin texniki pasportu itdiyindən etibarsız sayılır.

***

Babək rayonu, Nehrəm qəsəbəsində Səfərov Bəxtiyar İbrahim oğlunun adına olan JN-$906^{B}$ nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Culfa rayonu, Saltaq kənd sakini Ələkbərov Əkbər Məmməd oğlunun adına olan JN-$490^{A}$ nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Culfa rayonu, Saltaq kəndində yaşamış Ələkbərova Xədicə Əli qızına məxsus JN-$401^{A}$ nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Kəngərli rayonu, Şahtaxtı kənd sakini Əsədov Muxtar Xəlil oğluna məxsus JN-$278^{A}$ nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” və JN-222 nömrəli, 10200028 kodlu dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Naxçıvan şəhəri, N.Naxçıvani küçəsi, döngə 6, ev 19-da yaşamış Məmmədov Qibləli Hüseyn oğlunun adına olan 1410 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.

***

Məmmədova Tamella Oruc qızının adına olan JN-720 nömrəli, 10204028 kodlu torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Şahbuz rayonu, Kükü kənd sakini Xəlilov Murtuz Fətulla oğlunun adına olan JN-$83^{A}$ nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Babək rayonu, Nehrəm qəsəbəsində Məmmədli Emin Ramil oğlunun adına verilən A-017443 nömrəli torpaq sahəsinin planı və ölçüsü itdiyindən etibarsız sayılır.

***

Ordubad rayonu, Dırnıs kənd sakini Bağırova Şərqiyyə Ağabala qızının adına olan $981^{B}$ nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Şahbuz rayonu, Qızıl Qışlaq kəndində Əliyev Məhəmməd Gülməmməd oğlunun adına verilmiş JN-$060^{A}$ nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor:
SARA ƏZİMOVA

Ünvan: AZ-7000,
Naxçıvan şəhəri, “Təbriz” küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: info@serqqapisi.gov.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Vöen: 020065441

Çapa imzalanmışdır 00:00

Nömrəyə məsul: Ceyhun Məmmədov
Ramiyə Əkbərova
Dizayner: Lətif Zeynalov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 500. Sifariş № 243